№ 38 (981) 21-27 sentyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN PREZİDENTİ BMT-NİN BAŞ QƏRARGAHINDA




Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin Mark Şnayer və bir sıra xristian yevangelik dini liderləri ilə görüşüb.

* * * * *

Sentyabrın 18-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında "BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək" adlı yüksək səviyyəli tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Yüksək səviyyəli tədbirdə ABŞ Prezidenti Donald Tramp çıxış edib.

BMT-də islahatlara ehtiyacın olduğunu deyən ABŞ Prezidenti Donald Tramp qurumun baş katibi Antonio Quterreşin bu istiqamətdə səylərini yüksək qiymətləndirib. D.Tramp vurğulayıb ki, bürokratiya və qeyri-səmərəli idarəçilik BMT-yə tam gücü ilə çalışmağa imkan vermir.

BMT-nin Baş katibi Antonio Quterreş dünyada çoxlu sayda insanların münaqişələrdən, aclıqdan əziyyət çəkdiklərini bildirib. "Bu insanların yardımımıza ehtiyacı var. Biz qurumda ciddi islahatlar həyata keçirməli, işimizi daha səmərəli icra etməliyik. Biz qlobal təşkilatıq və insanların bizə olan etimadını doğrultmalıyıq", - deyə A.Quterreş vurğulayıb.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Nyu-Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, "Bnai Brith International"ın, Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, "Vaad L`Hatzolas Nidchei Yisroel" yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb.

* * * * *

Sentyabrın 19-da Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında ümumi müzakirələrin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Ümumi müzakirələrin açılışında çıxış edən BMT-nin Baş katibi Antonio Quttereş hazırda dünyada bir çox problemlərin olduğunu vurğulamış, ölkələr arasında etibar və etimadın aşağı düşdüyünü bildirmişdir. Qaçqınların sayının artması, miqrasiyanın çağırışları, insan alveri, iqlim dəyişikliyi və digər mövcud qlobal problemlərə toxunan BMT-nin Baş katibi əminliyini ifadə etmişdir ki, yalnız birlikdə sülhə nail olmaq və qarşılıqlı etimadı bərpa etmək mümkündür.

BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının prezidenti Miroslav Layçak dünyada davam edən münaqişələrin ən çox sadə insanlara ziyan vurduğunu demişdir. O, yoxsulluq, iqlim dəyişikliyi, beynəlxalq terrorizmin çağırışları ilə bağlı fikirlərini bölüşdü, bu problemlərin insanların həyatına birbaşa təsir etdiyini vurğulamışdır. Miroslav Layçak qeyd etmişdir ki, sülhün təmin edilməsi və müharibələrin qarşısının alınması BMT-nin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

Sonra Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temer müzakirə olunan mövzularla bağlı fikirlərini bölüşmüşdür.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp BMT-nin fəaliyyətinin daha da səmərəli olmasının vacibliyinə toxundu. O vurğuladı ki, dövlətlər xalqların maraqlarını və gələcəyini müdafiə etməlidir. ABŞ Prezidenti dedi ki, biz birlikdə çalışmalıyıq və təhdidlərə qarşı bir olmalıyıq.

Donald Tramp Türkiyə, İordaniya və Livana Suriyadan olan qaçqınları qəbul etdiklərinə görə minnətdarlığını da bildirmişdir.

## 43,7 milyard manatlıq ÜDM istehsal olunub

2017-ci ilin yanvar-avqust aylarında Azərbaycanda 43 milyard 713,2 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. 2016-cı ilin yanvar-avqust aylarına nisbətən ÜDM 1,1% azalıb. ÜDM yanvar-may aylarında 0,9%, yanvar-iyul aylarında isə 1% azalmışdı. 8 ayda qeyri-neft ÜDM-i 2,4% artıb. Əhalinin hər nəfərinə 4 498 manat ÜDM düşüb.



## 558 xarici investisiyalı şirkət qeydiyyata alınıb

Dövlət qeydiyyatının "bir pəncərə" prinsipi ilə qeydiyyata alınmasına başlanmasından ötən müddət ərzində 36 min 254 hüquqi şəxs dövlət qeydiyyatına alınıb.

Bu ilin 8 ayı ərzində 4282 hüquqi şəxs dövlət qeydiyyatına götürülüb. Onların 97,3 faizi məhdud məsuliyyətli cəmiyyət təşkilati hüquqi formasında yaradılıb.

Qeyd olunub ki, hazırda say bölgüsü baxımdan yerli investisiyalı müəssisələr üstünlük təşkil edir. Lakin son dövrlər xarici investisiyalı müəssisələrin qeydiyyatında da yüksək dinamika özünü göstərir. Hüquqi şəxslərin dövlət qeydiyyatının "bir pəncərə" prinsipi ilə qeydiyyata alınmasına başlanmasından ötən müddət ərzində dövlət qeydiyyatına alınmış 36.254 hüquqi şəxsdən 5470-i xarici investisiyalı müəssisələrdir ki, bu da qeydiyyata alınan müəssisələrin 15,1 faizini təşkil edir.

Son 8 ay ərzində qeydiyyata alınan 558 xarici investisiyalı müəssisələrdən 147-si (26,3 faiz) Türkiyə Respublikasının, 81-i (14,5 faiz) İran İslam Respublikasının, 52-si (9,3 faiz) Pakistan İslam Respublikasının, 39-u (7 faiz) Rusiya Federasiyasının, 29-u (5,2 faiz) Hindistan Respublikasının, 25-i (4,5 faiz) Ukraynanın, 25-i (4,5 faiz) Gürcüstanın, 160-ı isə (29 faiz) digər xarici ölkələrin investorlarıdır.





# Müasir toxum istehsalı kompleksi tikilir



Kənd Təsərrüfatı Nazirliyi kartof və tərəvəz toxumu istehsalı müəssisəsi tikir.
İsrail təcrübəsinə uyğun müasir kompleks Elmi Tədqiqat Tərəvəzçilik və Kartofçuluq İnstitutunun (ETTKİ) nəzdində fəaliyyət göstərəcək.
Kompleks istixana, toxum emalı məntəqəsi, kartof toxumu kulturası laboratoriyası və xəstəlik və zərərvericilərin müayinəsi üçün diaqnostika laboratoriyasından ibarət olacaq.
Hazırda kompleksin laboratoriya və inzibati otaqların yerləşəcəyi binasının tikintisi tamamlanmaq üzrədir.
Bundan başqa, birbaşa israilli mütəxəssislərin nəzarəti ilə 6,14 ha ərazidə istixanaların quraşdırılmasına başlanılıb. İstixanlarla bərabər, 30 ha açıq sahədə müasir damcı ilə suvarma sistemləri quraşdırılacaq.
Nazirlik kompleksdə çalışacaq yerli mütəxəssislərin hazırlığı üçün təlimlər keçirilməsini və yeni işçilərin cəlb olunmasını da nəzərdə tutub.
Müasir toxum istehsalının təşkili yüksək məhsuldarlıq və qida təhlükəsizliyinin təmini üçün vacib amillərdəndir. Yeni istehsal texnologiyalarının tətbiqi bizə yetişdiriləcək məhsulları Avropa və Mərkəzi Asiyanın bazarlarında “Made in Azerbaijan” brendi kimi satışa çıxarmağa imkan verəcək.

# MAL İDXALI 18 FAİZ ARTIB, İXRAC İSƏ DƏYİŞMƏYİB




Cari ilin II rübündə Azərbaycana idxal olunan malların dəyəri 299 milyon dollar və ya 17,9% artaraq 1 milyard 965 milyon dollar təşkil edib. Hesabata görə, Azərbaycan ilk rübdə 1 milyard 666 milyon dollarlıq mal idxal edib.
Bu ilin II rübündə qeyri-neft sektoru üzrə mal idxalı isə 314 milyon dollar və ya 22,6% artaraq 1 milyard 706 milyon dollar təşkil edib. İlk rübdə bu göstərici 1 milyard 392 milyon dollar olub.
Azərbaycan II rübdə 3 milyard 555 milyon dollarlıq mal ixrac edib. İlk rüblə müqayisədə ciddi dəyişiklik olmayıb. Belə ki, Azərbaycan ilk rübdə 3 milyard 556 milyon dollarlıq mal ixrac edib. Azərbaycanın qeyri-neft sektorunun ixracı II rübdə ilk rüblə müqayisədə 204 milyon dollar və ya 80,3% artaraq 459 milyon dollara çatıb.
İxracın strukturunda qeyri-neft sektorunun xüsusi çəkisi 12,9%-ə yüksəlib. İlk rübdə bu göstərici 7,1% təşkil edib.

# Yasamal Yaşayış Kompleksində ilk güzəştli mənzillərin mülkiyyət hüququnun qabaqcadan qeydiyyatı təmin edilib



Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) icrası davam edən ilk layihəsi – Yasamal Yaşayış Kompleksinin 9 bina və 584 mənzildən ibarət olan birinci məhəlləsinin mənzillərinin mülkiyyət hüququnun qabaqcadan qeydiyyatı təmin edilib.
Məlumata əsasən, bununla əlaqədar, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyətinə hüquqların qabaqcadan qeydiyyatı barədə daşınmaz əmlakın dövlət reyestrindən arayışlar təqdim olunub.
Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, qabaqcadan qeydiyyat sənədləri tikintisi davam edən mənzillərin alqı-satqısının rəsmiləşdirilməsi üçün əsasdır.
Eyni zamanda, mövcud qanunvericiliyə görə, qabaqcadan qeydiyyat arayışı tikinti mərhələsində olan mənzillərin girov qoyularaq “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti və “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə əməkdaşlıq müqaviləsini imzalamış müvəkkil banklar tərəfindən güzəştli ipoteka kreditlərinin verilməsinə imkan yaradır.
Mənzillər üzrə hüquqların qabaqcadan qeydiyyatı təsdiq olunmuş tikinti layihəsi və tikintiyə icazə əsasında aparılır, həmçinin mənzillərin layihəyə uyğun şəkildə inşa olunmasına zəmanət verir. Yaşayış binası tikilərək istismara verildikdən sonra mənzilə sahib olan vətəndaşın qabaqcadan qeydiyyat arayışı daşınmaz əmlakın dövlət reyestrindən çıxarış ilə əvəzlənəcək.
Mənzil İnşaatı Dövlət Agentliyi 29 yaşayış binasından ibarət Yasamal Yaşayış Kompleksinin tikintisi davam edən növbəti mənzillərinin mülkiyyət hüququnun qabaqcadan qeydiyyatının təmin edilməsi istiqamətində işləri davam etdirəcək və müvafiq arayışların mərhələli şəkildə alınmasını təmin edəcək.

# "Abşeron" yatağında ilk quyu 2019-cu ildə istismara veriləcək



"Abşeron" yatağında ilk quyu 2019-cu ildə sutkalıq 4 milyon kubmetr təbii qaz hasilatı ilə istismara veriləcək.
Bu barədə SOCAR-ın prezidenti Rövnəq Abdullayev Neftçilər günü münasibətilə keçirilən mərasimdə deyib. O qeyd edib ki, həmin il "Abşeron"dan ilk faza çərçivəsində 1,5 milyard kubmetr, 2020-2023-cü illərdə isə ikinci faza üzrə 5 milyard kubmetr qaz hasil edilməsi nəzərdə tutulur.

# "Proqnoz vermək çətindir"

"İnflyasiyanın səviyyəsi ilə bağlı proqnoz vermək çətindir. Mənim fikrimcə, mövsümi amillərdən, yəni yay fəsli ilə əlaqədar ərzaq məhsullarında ucuzlaşmadan sonra qarşıdakı aylarda inflyasiya "sıçrayışı" olmayacaq".
Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmov deyib.
Onun sözlərinə görə, hökumət ilin sonuna inflyasiyanın sürətlənməsini gözləmir:
"Bilirsiniz ki, istehlak səbətində ərzağın payı əhəmiyyətlidir. Hər hansı fundamental amil, xarici amildən, yəni inflyasiya ixracından başqa inflyasiyanın sürətlənməsinə səbəb olan daxili amil görmürük".
E.Rüstəmov əlavə edib ki, hökumətin hələ də müəyyən dərəcədə inflyasiya ilə bağlı gözləntiləri qalıb: "Bizim əsas vəzifəmiz ilin sonuna qədər bu gözləntiləri effektiv idarə etməkdir".

# Azərbaycan 1 milyard dollar tələb edən layihəyə sərmayə qoyacaq



Ötən həftə Çin ilə İran arasında imzalanan memoranduma əsasən, Çinin CITIC Group dövlət investisiya şirkəti tərəfindən İranın “Rəfah”, “Pasargad”, “Pars”, “Sənaye” və “İxrac” banklarından ibarət konsorsiuma 10 milyard dollar həcmində kredit veriləcək.
İranın Mərkəzi Bankının sədri Vəliyullah Seyfi bildirib ki, bu müqavilə İran və Çinin mərkəzi bankları arasındakı səmərəli əməkdaşlıq nəticəsində imzalanıb. Onun sözlərinə görə, maliyyə vəsaiti enerji, nəqliyyat, su resurslarının idarə edilməsi sahəsində həyata keçirilən infrastruktur layihələrə sərf olunacaq. V.Seyfi onu da nəzərə çatdırıb ki, artıq cari ilin oktyabr ayından başlayaraq 10 milyard kredit hissə-hissə İran banklarına köçürüləcək.
Xatırladaq ki, “CITIC Group” özündə 44 maliyyə şirkətini birləşdirir. Bu şirkətlərin ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və başqa ölkələrdə böyük filialları fəaliyyət göstərir.
Göründüyü kimi, belə bir ciddi qurumun maliyyə krediti təqdim etməsi heç də təsadüfi xarakter daşımır.
Əvvəla qeyd edək ki, İranın Mərkəzi Bankının sədri maliyyə vəsaitinin digər sahələrlə yanaşı, nəqliyyat sahəsinə də yönəldiləcəyini vurğulayıb. Bu gün İranın ən aktual məsələsi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin (ŞCBND) formalaşdırılması istiqamətində həyata keçirdiyi işlərdir. Bu nəqliyyat dəhlizi Rusiya, Azərbaycan və İran ərazisindən keçməklə Avropa ilə Asiyanı birləşdirəcək.
ŞCBND-nin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara dəmir yolunun çəkilişi işləri davam edir. Yolun Qəzvin-Rəşt bölməsi artıq hazırdır. Rəşt-Astara hissəsinin inşası isə maliyyə problemi səbəbindən yubanır. Körfəz ilə Xəzər dənizini birləşdirəcək Qəzvin-Rəşt-Astara yolu İranın dəmir yolu sistemini Azərbaycan ərazisindən keçməklə Rusiyanın dəmir yolu sistemi ilə birləşdirəcək. İran üçün mühüm əhəmiyyət daşıyan və Avropaya çıxış imkanı verən yolun çəkilişinin Çindən alınan kredit hesabına inşa ediləcəyinə artıq şübhə yeri qalmır.
İran Dövlət Dəmir Yolları İdarəsinin rəsmi nümayəndəsi Abbas Zamani bildirib ki, Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilişinə 1 milyard dollara yaxın investisiya lazımdır. Çindən alınan kreditdən əlavə, Azərbaycan və Rusiya yolun çəkilişinə sərmayə qoymaq niyyətindədirlər. Çünki bu yol hər iki dövlətin iqtisadi maraqlarını əks etdirir.
Beləliklə, yuxarıda deyilənləri nəzərə alaraq qeyd etmək lazımdır ki, Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilişi artıq reallıqdır.

# "Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı Böyük İpək yolunun rəqəmsallaşmasına töhfə verir"



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən (İİTKM) bildiriblər ki, bu fikri mərkəzin icraçı direktoru Vüsal Qasımlı "İqtisadi inkişaf modelləri: Azərbaycan və Çin nümunələri" mövzusunda keçirilən seminarda səsləndirib.
İİTKM-in icraçı direktoru Vüsal Qasımlı ölkədə həyata keçirilən strateji yol xəritələri və yeni iqtisadi model quruculuğu barədə məlumat verib.
"Azexport" portalının rəhbəri Zaur Qardaşov isə "Azexport" və "Alibaba" arasında olan əməkdaşlıq barədə danışaraq qeyd edib ki, bu günlərdə "Azexport" "Alibaba"nın "uğur hekayəti" kimi qəbul edilib.
Çinin İctimai Elmlər Akademiyası (ÇSEA) İqtisadiyyat İnstitutunun direktoru, professor Pei Canxun isə diqqətə çatdırıb ki, onun ölkəsində qlobal çağırışlara uyğun olaraq iqtisadi siyasət yürüdülür.
Pei Canxunun sözlərinə görə, iki ölkənin alimləri arasında əməkdaşlıq hər iki modelin dərindən öyrənilməsi və qarşılıqlı təcrübə mübadiləsi üçün geniş imkanlar var.
Seminarda Böyük İpək yolu boyunca Çin və Azərbaycan arasında iqtisadi əməkdaşlıq perspektivləri də müzakirə olunub. Xüsusilə, neft-qaz, İKT, aqrar, turizm və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğu qeyd edilib.
Çinin İctimai Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun direktoru, professor Pei Çanxunun rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi ilə tanış olub.

# Azərbaycan Dünya Bankı ilə güclü tərəfdaşlıq qurub

Sentyabrın 19-da Azərbaycanın Dünya Bankına üzvlüyünün 25-ci ildönümü ilə bağlı mərasim keçirilib.

Mərkəzi Bankın sədri Elman Rüstəmov 25 illik əməkdaşlıq dövründə Azərbaycanın Dünya Bankından texniki, maddi, ümumiyyətlə hərtərəfli dəstək aldığını deyib. Bildirilib ki, Dünya Bankı ilə Azərbaycanın uzunmüddətli və davamlı əməkdaşlığının əsasını ümummilli lider Heydər Əliyev qoyub. 25 il əvvəl Heydər Əliyevin rəhbərliyi ilə liberal bazar iqtisadiyyatının seçilməsi Dünya Bankı tərəfindən dəstəklənib. Struktur islahatlarının dərinləşdirilməsi, sosial-iqtisadi infrastrukturun bərpası və inkişafı, yoxsulluğun azaldılması və digər sahələr Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığının başlıca istiqamətləridir.

2003-cü ildə Prezident İlham Əliyev tərəfindən iqtisadi islahatlar, sıçrayışlı iqtisadi inkişaf strategiyası irəli sürülüb: "Məhz bu dövrdən sonra ölkədə radikal dönüş baş verib, milli iqtisadiyyat 3 dəfədən çox böyüyüb, Azərbaycan orta gəlirli dövlətlər sırasına daxil olub. Yoxsulluq 10 dəfə azalıb, 3 milyondan çox insan yoxsulluqdan xilas olub, 1 milyondan çox yeni iş yeri yaradılıb.

Qeyd edilib ki, bu günədək 50-dən artıq layihəyə Dünya Bankı tərəfindən 3,6 milyard dollar vəsait ayrılıb. Hazırda isə Dünya Bankı tərəfindən dəyəri 1 milyard 140 milyon olan 10 aktiv layihə həyata keçirilir. Ümumilikdə Dünya Bankı Azərbaycanda təhsil və səhiyyə sisteminin yaxşılaşdırılması, nəqliyyat və su kanalizasiya sisteminin təkmilləşdirilməsi, kənd təsərrüfatının, enerji sektorunun inkişafı, ətraf mühitin və mədəni irsin qorunması kimi bir sıra sahələrdə həyata keçirilən layihələrə dəstək verir, neft sektoru üzrə iri layihələr hökumətlə birgə həyata keçirilir. Dünya Bankının Azərbaycan üçün strateji layihələrə, o cümlədən "Cənub Qaz Dəhlizi" layihəsinə verdiyi dəstək xüsusi yer tutur.

Ölkəmizin Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə də uğurla əməkdaşlıq etdiyini deyən sədr müxtəlif dövrlərdə IFC-nin çoxsaylı layihələrin maliyyələşdirilməsinə yarım milyard dollar vəsait ayırdığını bildirib.

E.Rüstəmov deyib: "Bu ilin birinci yarısında tədiyə balansının cari əməliyyatlar hesabında ÜDM-in 2,5 faizi səviyyəsində profisit qeydə alınıb. Səkkiz ayda ölkənin strateji valyuta ehtiyatları 12 faizədək artıb və ÜDM-in həcmini üstələyib. Valyuta bazarı tarazlaşıb, milli valyutanın məzənnəsi sabitləşib. İqtisadi subyektlərdə nikbinlik və müsbət gözləntilər yaranıb".

Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Müller qeyd edib ki, təmsil etdiyi qurumun Azərbaycanda ilk layihələri 1995-ci ildə təsdiq edilib. O vaxtdan bəri tərəfdaşlığımız yüksələn xətlə inkişaf edərək həm kəmiyyət, həm də keyfiyyət baxımından təkmilləşib. Azərbaycan bizim sadiq tərəfdaşımızdır. Məhsuldar əməkdaşlığımız gələcəkdə yoxsulluğun səviyyəsinin aşağı salınmasına, müştərək rifahın bərpasına yönəldiləcək. Eyni zamanda, Beynəlxalq Maliyyə Korporasiyası 56 layihə çərçivəsində özəl bölmənin müxtəlif sektorlarına, o cümlədən maliyyə xidmətlərinə, infrastruktur və sənayeyə 470 milyon ABŞ dollarından çox sərmayə qoyub.

"Bizim Azərbaycandakı investisiyalarımız illər boyu Avropa və Mərkəzi Asiya regionunda ən iri portfellərimizdən biridir. Azərbaycan Dünya Bankı ilə güclü tərəfdaşlıq qurub və bundan qürur duyur. Yaxın gələcəkdə Azərbaycan dövləti və xalqı ilə tərəfdaşlığımızı davam etdirməyə hazırıq", - deyə Siril Müller vurğulayıb.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Dünya Bankı ilə Azərbaycanın əməkdaşlığının 25 illik münasibətilə məhz Azərbaycana



gəldiyi üçün çox sevindiyini deyib. Vurğulayıb ki, Azərbaycan bu illər ərzində dost və yaxşı tərəfdaş kimi yadda qalıb.

Tədbir çərçivəsində Azərbaycanın Dünya Bankına üzvlüyünün 25-ci ildönümü münasibətilə Azərbaycan hökuməti tərəfindən xüsusi olaraq buraxılan markalar imzalanıb və möhürlənib. Markaları Baş nazirin müavini Abid Şərifov və Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon imzalayıb və möhürləyiblər.

Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın əhəmiyyətini vurğulayan Baş nazirin müavini Abid Şərifov Dünya Bankının ölkəmizə ayırdığı kreditdən, həyata keçirdiyi layihələrdən danışıb. Bildirib ki, bu gün Azərbaycan öz iqtisadi inkişafı ilə yanaşı, həm də etibarlı tərəfdaş kimi seçilir. Bunun nəticəsidir ki, artıq 25 ildir Dünya Bankı ilə müxtəlif sahələri əhatə edən layihələr həyata keçirilir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu əməkdaşlıq bu gün də uğurla davam etdirilir. Dünya Bankı tərəfindən ilk layihə su və kanalizasiya sisteminin yaxşılaşdırılması olub. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

"Azərmarka" şirkəti ölkəmizdə Azərbaycan və Dünya Bankı əməkdaşlığın 25 illiyinə həsr olunmuş poçt markası nəşr edib. Bu cür markalardan 25 min nüsxə buraxılacaq. Bu markalar Azərbaycanla Dünya Bankı arasında əməkdaşlığın rəmzinə çevriləcək", - deyə qeyd edən nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib. "Bizim üçün çox müsbət haldır ki, artıq dünyada geniş imkanlardan istifadə edərək, Mərkəzi Bankdan alınmış lisenziyalar əsasında Azərbaycan poçtu ölkənin bütün ərazisində geniş şəbəkə vasitəsilə əhalimizə poçt xidmətlərinin göstərilməsi, pulköçürmələr, maliyyə institutlarının müxbir hesablarının aparılması, debit kredit kartları, poçt çeklərinin emissiyası və s. xidmətləri həyata keçirir" - deyə nazir müavini bildirib.

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov qeyd edib ki, təmsil etdiyi qurum 18 ildir Dünya Bankı ilə əməkdaşlıq edir. 18 il ərzində Dünya Bankının xətti ilə 170 milyon dolları dək kredit layihələri məcburi köçkünlər üçün icra olunub.

Azərbaycanın iqtisadi ticarət partnyorlarının sayının 180 ölkəyə çatdığını deyən iqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, keçən illər ərzində ölkəmizdə ümumi məhsul buraxılışı 22 dəfədən, dövlət büdcəsi 26 dəfədən çox artıb. Azərbaycan xarici investisiyalar üçün cəlbedici məkana çevrilib. Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan çox investisiya yatırılıb, o cümlədən 76 milyard dollar həcmində birbaşa xarici investisiya cəlb olunub. Özəl sektorun, sahibkarlığın inkişafında Dünya Bankının xüsusi rolu var. "Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi uğurla icra olunub və Dünya Bankı tərəfindən mükafata layiq görülüb. Bank tərəfindən rəqabətliliyin artırılmasına, ölkəmizdə yaradılan sənaye parklarına və məhəllələrinə texniki dəstək göstərilib", - deyə nazir diqqətə çatdırıb.

Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr barədə məlumat verən maliyyə naziri Samir Şərifov deyib ki, Azərbaycanın Dünya Bankı ilə o cümlədən maliyyə sisteminin idarə edilməsi sahəsində geniş əməkdaşlığı mövcuddur. Bu sahələr üzrə ən çox maliyyə vəsaiti isə yol tikintisinin yenidənqurulmasına ayrılıb.

Maliyyə naziri vurğulayıb ki, ölkəmiz 1992-ci ildən Dünya Bankı Qrupunun üzvü olsa da, əməli şəkildə əməkdaşlığımız 1995-ci ildən başlayıb. Bankın Bakıda yeni nümayəndəliyi açılıb. Azərbaycan hökuməti Dünya Bankı ilə ilk birgə makroiqtisadi sabitləşdirmə və struktur islahatları proqramının həyata keçirilməsinə başlayıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən davam etdirilən iqtisadi siyasətin nəticəsi olaraq ölkəmizin əldə etdiyi nailiyyətlərdə Dünya Bankı ilə əməkdaşlıq vacib rol oynayıb.

"Azərbaycan orta gəlirli ölkələr sırasına daxil olub. Bu gün Azərbaycanda adambaşına gəlir yüksəlib. Azərbaycan Dünya Bankı ailəsinə daxil olan 5 qurumla fəal əməkdaşlıq edir. Hesab edirəm ki, Dünya Bankı ilə əməkdaşlığımız bundan sonra da bugünkü kimi uğurlu olacaq və Azərbaycan inkişafına xidmət göstərəcək", - deyə nazir bildirib.

Tədbirdə Azərbaycan və Dünya Bankı arasında 25 illik tərəfdaşlığın qeyd olunması ilə bağlı videoçarx nümayiş olunub.

Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Navid Naqvi təqdimatla çıxış edib. Bildirib ki, təmsil etdiyi qurum Azərbaycanla icra etdiyi 41 layihə artıq yekunlaşıb. Qurum Azərbaycanda su təsərrüfatı sisteminin yaxşılaşdırılması, bərk tullantıların idarə edilməsi və qaçqın və məcburi köçkünlərinin həyat şəraitinin yaxşılaşdırılması layihələrinə dəstək verir.

# Mərkəzi Bank faiz qərarını açıqladı




Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti 18 sentyabr 2017-ci il tarixində uçot dərəcəsinin və faiz dəhlizinin digər parametrlərinin dəyişməz saxlanılması (uçot dərəcəsi 15%, dəhlizin aşağı həddi 10%, yuxarı həddi 18%) barədə qərar qəbul etmişdir.

-Makroiqtisadi sabitlik və real sektorda aktivliyin pozitiv dinamikası qorunur. Tədiyə balansının profisitli olması şəraitində valyuta bazarında tarazlıq təmin edilir və manatın məzənnəsi stabildir. Pul təklifi iqtisadiyyatın pula olan tələbatı, o cümlədən fiskal sektorun likvidliyə olan ehtiyacına uyğun olaraq artır. İnflyasiyanın monetar və qeyri-monetar amillərinin təhlili göstərir ki, pul siyasətinə əhəmiyyətli korreksiya etmək zərurəti yoxdur. Faiz dəhlizinin parametrlərinə dair qərar qəbul edilərkən aşağıdakı makroiqtisadi meyillər nəzərə alınmışdır:

**İqtisadi aktivlik.** Real sektor göstəriciləri pozitiv dinamikanı qoruyur. 2017-ci ilin 8 ayında qeyri-neft sektorunda 2.2%-lik iqtisadi artım qeydə alınmışdır. O cümlədən, qeyri-neft sənayesində 4.6%, ticarətdə 1.8%, turizmdə 2.6%, rabitə və informasiya sahəsində 4.9% artım müşahidə olunur. Qeyri-neft sektorunun inkişafına yönəldilmiş silsilə tədbirlər, dövlətin investisiya tələbi və xarici tələbin genişlənməsi iqtisadi artımın davam etməsində əhəmiyyətli rol oynamışdır. Mərkəzi Bank tərəfindən aparılan real sektorun monitorinqinin nəticələri qeyri-neft sektorunda iqtisadi aktivliyin yüksəlməsini təsdiq edir.

**Xarici balans və məzənnə.** 2017-ci ilin I yarısında tədiyə balansının cari əməliyyatlar hesabında ÜDM-in 2.5%-i səviyyəsində profisit qeydə alınmışdır. Bu neftin orta dünya qiymətinin ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli yüksəlməsi, eləcə də həyata keçirilmiş makroiqtisadi siyasət tədbirləri nəticəsində qeyri-neft sektoru üzrə cari hesab kəsirinin azalması sayəsində mümkün olmuşdur. Yanvar-avqust aylarında xarici ticarət balansının profisiti 1.9 mlrd. ABŞ dolları təşkil etmiş, ölkənin strateji valyuta ehtiyatları 11.5% artmışdır. İlin sonuna tədiyə balansında profisitin qorunacağı proqnozlaşdırılır.

Profisitli tədiyə balansı fonunda valyuta bazarı özünün tarazlığını, milli valyutanın məzənnəsi isə sabitliyini qoruyur. Manatın ABŞ dollarına nəzərən məzənnəsi ilin əvvəlindən möhkəmlənmişdir ki, bu da inflyasiya gözləntilərinə azaldıcı təsir edir. Manatın məzənnəsinin davamlı sabitliyi dollarlaşmanın azalması ilə müşayiət olunur. **Monetar şərait.** Dövr ərzində monetar şərait qismən yumşalsa da, ümumilikdə neytral qalmışdır. Pul siyasətinin başlıca əməliyyat hədəfini təşkil edən pul bazası 2017-ci ilin ötən dövründə 8%-dən çox artmışdır. Kredit aktivliyinin bərpa olunmaması şəraitində pul bazasının artımı bank sistemində izafi likvidliyin akkumulyasiyası ilə müşayiət olunur.

Mərkəzi Bank dövr ərzində müxtəlif müddətli açıq bazar və çərçivə alətlərini açıq saxlamışdır. Lakin bank sistemində yüksək likvidlik şəraitində Mərkəzi Bankın sterilizasiya alətlərinə daha yüksək tələb olmuşdur.

Mərkəzi Bankın likvidlik əməliyyatları üzrə real faiz dərəcələri isə milli valyutada yığımları stimullaşdıra biləcək səviyyədə qalır.

**İnflyasiya prosesləri.** Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2017-ci ilin 8 ayında orta illik inflyasiya 14% təşkil etmişdir. Qiymət dinamikası və inflyasiya gözləntilərinin amillərində əhəmiyyətli dəyişiklik baş verməmişdir. İnflyasiyanın xarici faktorlarında yüksək volatillik qalır. O cümlədən cari ildə dünya ərzaq qiymətlərində yüksəlmə və bəzi partnyor ölkələrdə milli valyutaların bahalaşması müşahidə olunmuşdur. Ümumi inflyasiya gözləntilərinin ayrı-ayrı məhsul qruplarının və qiymətləri dövlət tərəfindən tənzimlənən mal və xidmətlərin qiymətlərinin dəyişiminə həssaslığı qalmaqdadır.

İnflyasiyanın qısa və orta müddətli risk amillərinin təhlili hələ ki, pul siyasətinə hər hansı əhəmiyyətli korreksiya zərurətini şərtləndirmir.

Mərkəzi Bankın İdarə Heyətində faiz dəhlizinin parametrləri növbəti dəfə 15 noyabr 2017-ci il tarixdə müzakirə ediləcəkdir.

# "Xalq Bank" 7 ayı xalis mənfəətlə başa vurub

"Xalq Bank" 2017-ci ilin 7 ayını 12 milyon 633 min manat xalis mənfəət ilə başa vurub. Halbuki, Bank bu ilin 6 ayında 5 milyon 171 min manat xalis mənfəət əldə etmişdi. Beləliklə, aylıq müqayisədə Bankın xalis mənfəəti artıb.



Bankın hesabatlarına istinadən xəbər verilir ki, Bank ilk 6 ayda 24 milyon 650 min manat əməliyyat mənfəətinin 19 milyon 487 min manatını aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmışdı. 7 ayın yekununda isə 29 milyon 404 min manat əməliyyat mənfəətinin 16 milyon 798 min manatı ehtiyatlara ayrılıb. Qısası, Bank İyulda ehtiyatların bir hissəsini xalis mənfəətə əlavə edib və nəticədə də Bankın xalis mənfəəti artıb.

"Xalq Bank" 2016-cı ilin 7 ayı ərzində 34 milyon 242 min manat əməliyyat mənfəətinin 29 milyon 201 min manatını ehtimal olunan zərərlərə görə ehtiyatlara ayırmış və 5 milyon 91 min manat xalis mənfəət əldə etmişdi.

7 ayda "Xalq Bank"ın faiz gəlirləri 58 milyon 869 min manat, faiz xərcləri 16 milyon 17 min manat, qeyri-faiz gəlirləri 6 milyon 801 min manat, qeyri-faiz xərcləri isə 20 milyon 250 min manat təşkil edib.

Ötən ilin yanvar-iyul dövründə Bankın faiz gəlirləri 61 milyon 427 min manat, qeyri-faiz gəlirləri 14 milyon 200 min manat təşkil etmişdi. Beləliklə, ötən ilin eyni dövrü ilə müqayisədə bu il bankın gəlirləri və əməliyyat mənfəəti xeyli azalıb.

31 iyul 2017-ci il tarixində "Xalq Bank" 1 milyard 802 milyon 870 min manat aktivlərə, 1 milyard 550 milyon 49 min manat öhdəliklərə və 252 milyon 820 min manat cəmi balans kapitalına malik olub.

"Xalq Bank" 31 iyul 2016-cı il tarixində 1 milyard 758 milyon 981 min manat cəmi aktivlərə, 1 milyard 524 milyon 33 min manat cəmi öhdəliklərə və 234 milyon 947 min manat cəmi balans kapitalına malik idi.

Bankın kredit portfeli 1 milyard 431 milyon 670 min manatdan 1 milyard 283 min 971 min manata düşüb. Nəticədə də, "Xalq Bank" gəlir formalaşdırmaqda çətinlik çəkir.

# Nüfuzlu Avropa bankı Beynəlxalq Bankın səhmdarı ola bilər

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB, EBRD) "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin səhmdarı olmağı ciddi düşünə bilər. AYİB-in səhmdar olması üçün Bankda "korporativ idarəetmə islahatı" olmalıdır.

European Bank
for Reconstruction and Development

Reuters-ə istinadən xəbər verir ki, bunu Bankın Prezidenti Suma Çakrabarti deyib.

O qeyd edib ki, bu il AYİB-in ABB-nin səhmdarı olacağı inandırıcı deyil. Bank AYİB-də dəyişiklikləri görmək istəyir.

Suma Çakrabarti ötən həftə Azərbaycana səfər edib. O, Azərbaycan Prezidentinin diqqətinə çatdırıb ki, AYİB Azərbaycanın bank sektorunda həyata keçirilən islahatlara kömək etməyə hazırdır. "Biz restrukturizasiyaya və bankın foksunu dəyişməyə kömək etməyə şad olarıq".

Suma Çakrabarti bildirib ki, Beynəlxalq Bank AYİB-i texniki kömək üçün cəlb edə bilər. AYİB bunun üçün də ABB-də restrukturizasiya dəyişikliklərini görmək istəyir.

Ölkənin ən iri bankı - Azərbaycan Beynəlxalq Bankı (ABB) 3,3 milyard dollar borcun restrukturizasiyasını aparır.

# Yeni tvinninq layihəsi uğurla icra edilir

Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsinə dəstək» layihəsi çərçivəsində təlim təşkil edilib. Azərbaycan tərəfindən layihə rəhbəri, vergilər nazirinin müşaviri Elçin Məmmədov bildirib ki, yeni tvinninq layihəsinin icrasına başlanılması Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında səmərəli əməkdaşlığın real nəticəsidir. Aİ-nin maliyyə dəstəyi ilə həyata keçirilən bu layihə vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addımdır.

Layihənin məqsədi vergi orqanları tərəfindən vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsi, səmərəliliyin təmin edilməsi, xidmətlərə tələbatın müəyyən olunması, davamlı inkişaf üçün Aİ ölkələrinin qabaqcıl təcrübələrinin tətbiqidir. Layihədə əsas tərəfdaşlar İspaniya və Fransanın vergi mütəxəssisləridir. Ümumi müddəti 27 ay, büdcəsi isə 1,3 milyon avro məbləğində müəyyən edilən layihə 4 əsas komponentdən ibarətdir:

- vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı İnkişaf Proqramının yaradılması;
- xidmətlərə tələbatın müəyyənləşdirilməsi və idarə olunması;
- vergi ödəyicilərinə göstərilən xidmətlərin əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi;
- mövcud göstəricilərin təkmilləşdirilməsi və qabaqcıl metodologiyalara əsaslanaraq bütün xidmət kanalları üzrə səmərəliliyin artırılması üçün məlumatların təhlili mexanizmlərinin yaradılması.

Cari ilin mart ayından icrasına start verilən layihə çərçivəsində İspaniya və Fransanın vergi administrasiyalarının mütəxəssisləri, eləcə də Aİ-nin ekspertləri ölkəmizə gələrək, Vergilər Nazirliyinin əməkdaşları ilə öz təcrübələrini bölüşüblər. İndiyədək bir neçə dəfə seminar və təlimlər təşkil olunub.

İspaniya Krallığının iqtisadiyyat və maliyyə xidmətləri üzrə müfəttişi Jesus Miranda bildirib ki, layihəyə uyğun olaraq, cari ilin iyul ayında ekspertlər Vergilər Nazirliyinin əməkdaşlarına 3 metodologiya (EFQM, COSO və SIX SIGMA) barədə məlumat verib və gələcəkdə keçiriləcək daha detallı təlim və məşğələlərin formatının müəyyənləşdirilməsi barədə müzakirələr aparıblar. Hazırkı təlim EFQM metodologiyası üzrə bilik və təcrübənin mənimsənilməsini əhatə edir. EFQM - Avropa Keyfiyyəti İdarəetmə Fondunun əsas məqsədi dövlət orqanları tərəfindən keyfiyyətli xidmətlərin göstərilməsi və idarəetmənin müasir modellərinin tətbiqi, bu sahədə dövlət orqanı əməkdaşlarının özünüqiymətləndirmə səviyyəsinin müəyyən edilməsidir. Beynəlxalq səviyyədə müqayisə olunan bu keyfiyyət standartı çərçivəsində vətəndaşlara və biznes üzvlərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması üçün müxtəlif qiymətləndirmə metodları tətbiq olunur. Xidmət alətləri vətəndaşlar üçün aydın, sadə və anlaşıqlı şəkildə tərtib edilir, dövlət-özəl sektor nümayəndələri arasında ünsiyyətin innovativ meyarları mənimsənilir. Strategiyanın əsas məqsədi xidmət sahəsində şəffaflıq, səmərəlilik, etibarlılıq, effekivlik, hesabatlılıq, müasir idarəetmə formasının təmin olunmasıdır.

Tvinninq layihəsinin əlaqələndirici müşaviri, fransalı mütəxəssis Paskal Tomas qeyd edib ki, təşkil olunan təlimlər vergi sistemində xidmətlərin təkmilləşdirilməsinə, xidmət standartlarının qabaqcıl Avropa meyarlarına uyğunlaşdırılmasına, bütün kanallarda xidmətlərin təminatının keyfiyyətinin yüksəldilməsinə mühüm təsirini göstərəcək.

## 2017-ci ilin avqust ayı ərzində vergi orqanlarına daxil olmuş vətəndaş müraciətləri haqqında

2017-ci ilin avqust ayı ərzində vergi orqanlarına 8 828 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 35,9% çoxdur. Müraciətlərdən 86,1%-i ərizə, 13,7%-i şikayət, 0,2%-i təklif olub. Müraciətlərin 31,3%-i müxtəlif arayışların alınması, 42,4%-i kameral vergi yoxlamaları, 8%-i vergi borcları, 3,4%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, qalanları isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 68,2%-i müsbət həll olunub.

Hesabat dövründə vergi orqanlarında ümumilikdə 405 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

## 2017-ci ilin avqust ayında vergi ödəyicilərinə göstərilmiş xidmətlər haqqında

2017-ci ilin avqust ayı ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 16562 zəng cavablandırılıb. Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə ikitərəfli mesaj xidmətinin istifadəçilərinə 73304 SMS göndərilib. Avqust ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 38577 daxilolma qeydə alınıb. Vergi ödəyicilərinə xidmət strukturlarında 28272 vətəndaş qəbul edilərək, onlara 43019 sayda xidmət göstərilib. 2017-ci ilin 1 sentyabr tarixinə vergi ödəyicilərinə ümumilikdə 8906 sayda ASAN İmza sertifikatı verilib. 2017-ci ilin avqust ayı ərzində 7589 (1099 hüquqi, 6490 fiziki) şəxs qeydiyyatdan keçib.




Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# 1 yaşlı müəssisənin uğurları: "Yalama Aqropark" bu gün



Azərbaycan ta qədimdən kənd təsərrüfatı istehsalının inkişafı üçün əlverişli şəraitə və unikal imkanlara malik ölkədir. Aqrar sektor onilliklər boyu ölkəmizin iqtisadiyyatında mühüm yer tutmuşdur, bu meyil indi də davam edir. Aqrar sektor inkişaf etdikcə ölkədə yerli mənbələr hesabına əhalinin ərzaqla təchiz edilməsi səviyyəsi yaxşılaşır, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün real şərait yaranır.

Son illər ərzində Azərbaycanda yaradılan aqroparklar, fermer təsərrüfatları, istixanaların sayı xeyli artmışdır. Yaxın perspektivdə respublikanın ayrı-ayrı bölgələrində 40-dək iri aqroparkın yaradılması nəzərdə tutulub.

**Azərbaycanın şimal qapısı – Xaçmaz rayonu.** Regionların sosial-iqtisadi inkişafı çərçivəsində yeniləşən, abadlaşan Xaçmazda indi yerli istehsalın inkişaf imkanlarından daha səmərəli istifadə olunur. Bunun parlaq təzahürü Azərbaycanda yaradılmış ilk Yalama aqroparkıdır.

Hazırda Azərbaycanın ilk aqroparkı - "Yalama Aqropark"ın yaradılmasından bir il ötür. Bu müəssisə 8 avqust 2016-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı və xeyir-duası ilə fəaliyyətə başlamışdır. Prezident İlham Əliyev aqroparkın açılışı zamanı "Gələcəkdə bu aqroparkın həm ərazisi, həm də fəaliyyəti genişləndirilməlidir. Ərazisi 3 dəfə bundan böyük olmalıdır", - deyə bildirmişdi.

Maraqlıdır, dövlətimizin başçısının bu tövsiyəsi ilə yaradılan aqropark ötən bir il ərzində fəaliyyətini necə genişləndirib? "Yalama Aqropark"ın İcraçı direktoru Zaur Əliyevin sözlərinə görə, "Yalama Aqropark" Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, Xaçmaz rayonunun Yalama qəsəbəsində, 523 hektar sahədə yaradılmışdır. Layihənin ilkin mərhələsinə uyğun olaraq, "Yalama Aqropark"da 1113 baş sağmal olmaqla 3000 başlıq cins iribuynuzlu heyvandarlıq kompleksi, müasir suvarma sistemi ilə 460 hektar sahədə iri əkinçilik təsərrüfatı, istehsal gücü saatda 5 ton olan yem zavodu yaradılmışdır".

Dövlət başçısının tövsiyəsi ilə son 1 ildə "Yalama Aqropark"ın əkin sahələri 3 dəfə artırılmış və istehsal genişləndirilmişdir. Xaçmaz rayonu Müqtədir qəsəbəsində Dövlət Ehtiyat Fondu torpaqlarından 956 hektar torpaq sahəsi uzunmüddətli icarəyə götürülmüş və əkin dövriyyəsinə qatılmışdır. Bununla da "Yalama Aqropark"ın əkin dövriyyəsinə cəlb etdiyi torpaq sahəsi 523 hektardan son bir ildə 1479 hektara çatdırılmışdır. Əkin sahələri genişləndirilməklə yanaşı, idxal əvəzləyici xarakterə malik soya bitkisinin əkini aparılmış, həmçinin taxıl və qarğıdalı bitkisinin əkin sahəsi genişləndirilmişdir. Həmçinin, heyvandarlıq kompleksinin genişləndirilməsi sahəsində işlər sürətlə davam etdirilir. Belə ki, heyvandarlıq kompleksinin istehsal gücünün damazlıq istiqaməti üzrə 1300 baş sağmal inəyə qədər genişləndirilməsinə, həmçinin əlavə olaraq istehsal tutumu 1000 baş olan yeni kökəltmə heyvandarlıq kompleksinin tikintisi üzrə işlərə start verilmişdir.

"Yalama Aqropark"da istehsal sahələri üzrə innovativ yanaşma və müasir texnologiyadan istifadə edildiyindən istehsal sahələri üzrə də ölkə üzrə yüksək məhsuldarlıq səviyyəsinə nail olunmuşdur. Belə ki, keçən əkin ilində dənlik qarğıdalı əkinində hektardan 15,6 ton məhsul yığılmışdır ki, bu da ölkə üzrə indiyə qədər əldə edilmiş ən yüksək məhsuldarlıq olaraq tarixə keçmişdir. Ümumilikdə, son bir ilin istehsal nəticələrinə nəzər salsaq, müəssisədə 400 hektar sahədə arpa əkini, 128 hektar sahədə yonca, 170 hektar sahədə dən qarğıdalı, 300 hektar sahədə silosluq qarğıdalı əkini və 50 hektar sahədə soya əkini aparılmışdır. Son 1 ildə 895 ton dən arpa və 1846,5 ton arpa senajı, 2600 ton yonca senajı və 900 min ton quru yonca otu, 1560 ton dən qarğıdalı və 4325 ton silosluq qarğıdalı istehsal edilmişdir.

**"Yalama Aqropark" bu gün ən iri heyvandarlıq təsərrüfatlarından biridir**

"Yalama Aqropark" hal-hazırda həm təsərrüfatda saxlanılan heyvan sayı, həmçinin daimi işçilərinin sayına görə ölkə üzrə fəaliyyət göstərən ən iri heyvandarlıq təsərrüfatlarından biridir. Belə ki, hazırda təsərrüfatda cəmi heyvan sayı 2100 başa bərabərdir. Müəssisəyə Avstriya və Almaniyadan heyvanlar gətirilmişdir ki, onlardan balaların alınması üzrə işlər aparılır.

Bu gün aqroparkda təsərrüfatın istehsal imkanlarının daha da genişləndirilməsi üzərində işlər davam edir. Müəssisədə ət istehsalını artırmaq üçün 1000 başlıq yeni kökəltmə fermasının tikintisinə başlanılması üzrə işlər gedir.

Daha yaxşı nəticələr əldə etmək üçün müəssisədə çalışan yerli mütəxəssislər təlimlərə göndərilir, eləcə də aqroparka inkişaf etmiş ölkələrdən təcrübəli ekspertlər dəvət edilir.

Yaxın zamanlarda aqroparkda, həmçinin süd istehsal edən zavod işə salınacaq, kərə yağı istehsalına başlanacaq. "Yalama Aqropark"da südlük-ətlik istiqamətli heyvanlar saxlanılır ki, onlar da südün keyfiyyət göstəricilərinə görə digər südlük cins heyvanlardan fərqlənir. İstehsal edilən südün yağlılıq dərəcəsi 4,2% və daha yuxarı olduğundan müəssisənin tərəfdaşlıq etdiyi emal müəssisələri tərəfindən kərə yağı istehsalında geniş tətbiq edilir.

"Yalama Aqropark" birbaşa ixracla məşğul olmasa da, aqroparkın süd satışı sahəsində tərəfdaşlıq etdiyi bir neçə süd emalı zavodu öz məhsullarını Rusiya və digər xarici ölkə bazarlarına çıxarır. Çox qürurverici haldır ki "Yalama Aqropark"da istehsal edilən süd hazırda xarici ölkə bazarlarında Azərbaycan məhsulu adı ilə satılır. Müəssisədə tezliklə süd zavodu işə düşdükdən sonra aqroparkın öz brendinin daxili və xarici bazara satışı da mümkün olacaqdır.

**Meyvə bağlarının salınması işlərinə start veriləcək**

Yaxın gələcəkdə aqroparkda meyvə bağlarının salınması işlərinə başlanacaq. Belə ki, layihə üzrə müasir suvarma sistemləri olan dairəvi PİVOT-ların arasında suvarılmayan sahələrin intensiv bağçılıq üçün istifadəsi nəzərdə tutulub. Hazırda Yalama ərazisində qurulmuş müasir suvarma sistemləri üzrə meyvə bağlarının salınması üçün planlaşdırılan sahə 60 hektarı əhatə edir. Müqtədir ərazisində PİVOT tipli suvarma sistemləri ilə yeraltı damcı suvarma sistemlərinin tətbiqi də nəzərdə tutulur. Suvarma sistemlərinin qurulması üzrə işlər yekunlaşdıqca, meyvə bağlarının salınması işlərinə start veriləcəkdir. İlk növbədə, region üçün xarakterik olan şaftalı, gilas, nektarin və gavalı meyvələrinin əkini planlaşdırılır.

30 milyon manat investisiya qoyuluşu, 300 iş yeri

"Yalama Aqropark"ın yaradılmasına layihənin 1-ci mərhələsi üzrə 20 milyon manat investisiya qoyulmuşdur. Müəssisənin icraçı direktoru Zaur Əliyevin sözlərinə görə, "Qoyulmuş investisiya nəticəsində cins heyvandarlıq təsərrüfatı, yem zavodu və taxıl anbarları, kənd təsərrüfatı texnikası parkı, müasir suvarma sistemi və lazımi infrastruktur işləri icra edilmişdir. Ümumilikdə, qoyulmuş investisiya nəticəsində layihənin 1-ci mərhələsi üzrə 170 daimi iş yeri yaradılmış, illik 4 milyon manat dəyərində təbii süd və 1,5 milyon manat dəyərində bitkiçilik məhsulları istehsalına nail olunmuşdur. Həmçinin, dövlət investisiyaları hesabına təsərrüfatın fasiləsiz su təminatı, eləcə də ətraf kəndlərin suvarma suyuna olan ehtiyaclarının ödənilməsində mühüm rol oynayan 3,2 kilometr uzunluğunda beton suvarma kanalı və tutumu 50 min kub metr olan su hovuzu tikilmişdir.

Layihənin 2-ci mərhələsi üzrə planlaşdırılan işlərin icrası üçün əlavə olaraq 10 milyon manat investisiya qoyuluşu planlaşdırılır. Bununla aqroparkda yaradılacaq iş yerlərinin sayı 300-ü keçmiş olacaqdır".

**GMO-ya "YOX" deyən müəssisə**

Azərbaycan məhsulları xarici bazarlarda keyfiyyətli, təbii olması ilə fərqlənir. "Yalama Aqropark"da geni dəyişdirilmiş toxum və yem qatqılarından imtina etmişdir. Bitkiçilik məhsullarının istehsalı prosesində bütün qəbul edilən aqrotexniki qaydalara əməl edilir. Heyvandarlıq təsərrüfatında heyvanların yemlənməsində heç bir GMO və hormonal tərkibli yemlərdən istifadə edilmir.

Hazırda ölkə prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında istifadəyə verilən 956 hektar əkin sahəsində müasir suvarma sisteminə malik bitkiçilik təsərrüfatının qurulması işləri icra edilir. Ərazidə daxili drenaj və kollektor sistemləri təmizlənmiş, suvarma kanalları bərpa edilmişdir. Həmçinin, əkinlərin daimi suvarma suyu ilə təmin edilməsi üçün Su və Meliorasiya Təsərrüfatı İdarəsi ilə əraziyə daimi su mənbəyi olan "Xanarx" və digər suvarma kanallarından beton kanalların çəkilişi üzrə layiləndirmə işləri aparılır. Ərazidə 2 müxtəlif suvarma mənbəyindən 10 km-ə yaxın beton suvarma kanalının çəkilməsi və tutumu 50000 kubmetr olan 2 ədəd su hovuzunun tikilməsi nəzərdə tutulub. Müasir suvarma sistemlərinin qurulması üçün "Valley", "Reinke" və "Lindsay" kimi dünyanın məşhur şirkətləri ilə danışıqlar aparılır.

Bundan başqa, aqroparkda heyvandarlıq kompleksinin tutumunu 1300 baş sağmal inəyə çatdırmaq və Müqtədir ərazisində 1000 başlıq ətlik heyvandarlıq kompleksinin tikintisi üzrə layihələndirmə işləri icra edilir. Heyvandarlığın artan yem tələbatını təmin etmək üçün tutumu 7500 kubmetr olacaq taxıl anbarı və qurutma gücü saatda 50 ton olan yeni qurutma sisteminin qurulması üzrə işlər davam etdirilir.

Aqroparkın fəaliyyəti regionda fəaliyyət göstərən kiçik və orta kənd təsərrüfatı məhsulları istehsalçıları üçün də əlavə üstünlüklər qazandırmışdır. Belə ki, heyvandarlıq təsərrüfatının ehtiyaclarını ödəmək üçün regionda olan fermer təsərrüfatlarından 1000 tona yaxın dən arpa və 500 min kq arpa samanı alınmışdır.

Beləliklə, "Yalama Aqropark" ilk aqropark olaraq fəaliyyətə başlamaqla aqroparkların yaradılması işləri üçün bir nümunə və ya "brendə" çevrilmişdir. Aqroparkın icraçı direktoru Zaur Əliyevin sözləri ilə desək, "Yalama Aqropark" olaraq hər bir sahədə işimizlə bir brendə çevrilməyi və qeyri-neft sektorunun inkişafına dəstək olmaqla yanaşı, kənd təsərrüfatı üzrə bilik ötürülməsini (knowledge transfer) təmin edən bir qabaqcıl mərkəz olmağı hədəfləyirik!"

***1 yaşını qeyd edən "Yalama Aqropark"a uğurlar diləyi ilə...***

**Yeganə MƏMMƏDOVA**

## UNEC rektoru: Müsbət proseslərin müşahidəçisi yox, iştirakçısı olun

Sentyabrın 18-də UNEC rektoru, professor Ədalət Muradov yeni tədris ilində 600-dən yuxarı bal toplayaraq UNEC-ə qəbul olan tələbələrlə görüşüb.

Rektor UNEC-i seçdikləri üçün onlara təşəkkürünü bildirib, təhsillərində uğurlar arzulayıb.

Peşə seçiminin insan həyatının ən önəmli mərhələlərindən biri olduğunu diqqətə çatdıran Ə.Muradov iqtisadçı ixtisasına bütün dövrlərdə ehtiyac duyulduğunu bildirib. Öz peşəsinə mükəmməl yiyələnən mütəxəssisin daha da faydalı kadr olmasında mühüm faktorlardan birincisinin vətəni və milləti sevmək olduğunu vurğulayıb.

I kurs tələbələrinə keyfiyyətli təhsilə təsir edən üç əsas amildən söz açan rektor, bunları savadlı müəllim, onun ötürdüyü bilikləri qavramaq iqtidarında olan bacarıqlı tələbə və müasir texnologiyaların tətbiqi kimi səciyyələndirib. UNEC-in Avropanın nüfuzlu universitetlərindən məzun olan müəllimlərindən, iki ildir uğurla tətbiq edilən Elektron Universitet Modelindən danışıb.

Azərbaycanda ilk dəfə UNEC-də dünyaca məşhur "Science Slam" elm müsabiqəsinin keçirildiyini diqqətə çatdıran Ə.Muradov tələbələri öz tədqiqatları ilə müsabiqəyə qatılmağa dəvət edib. "Tələbə cəmiyyəti öz-özünü idarə edə bilən cəmiyyət olmalıdır" deyən rektor ölkədə tələbə rektorun fəaliyyət göstərdiyi yeganə ali təhsil ocağının UNEC olduğunu diqqətə çatdırıb. Tələbə rektor Cabbar Hüseynlini və tələbə təşkilatlarının rəhbərlərini I kurs tələbələrinə təqdim edib.

## UNEC-in Prezident təqaüdçüləri: "Seçimimizdən məmnunuq!"



Sentyabrın 14-də UNEC-də "Oriyentasiya Günü" keçirilib.

UNEC-də ənənəvi olaraq hər il keçirilən və dünyanın aparıcı universitetlərində də xüsusi qeyd edilən "Oriyentasiya Günü"nün məqsədi I kurs tələbələrini universitet həyatı ilə tanış etmək, ilk günün təəssüratlarını zənginləşdirmək, yuxarı kurs tələbələri ilə birlikdə pozitiv anlar yaşamaqdır. Universitetin bütün tədris binalarında keçirilən "Oriyentasiya Günü"ndə I kurs tələbələrinə UNEC barədə video-çarx nümayiş olunub. Video-çarxda UNEC-in tarixi, tədris prosesi, beynəlxalq əlaqələri, ikili diplom, mübadilə və təqaüd proqramları barədə məlumat verilib. UNEC könüllülərindən ibarət məlumat və bələdçi xidməti tələbə və valideynləri maraqlandıran suallara cavab verməklə yanaşı, onlar üçün universitet ərazisində infoturlar da təşkil ediblər. İlk dəfə auditoriyada əyləşmək sevincini yaşayan tələbələr Elektron Universitet Modelini maraqla qarşılayıblar. Öz startap layihələrini İnnovativ Biznes İnkubatorda reallaşdıra biləcəyini öyrənən gənclər UNEC-in tələbələrə yaratdığı imkanlardan məmnun qaldıqlarını ifadə ediblər.

Qəbul imtahanlarında 700 bal toplayaraq UNEC-ə qəbul olan Prezident təqaüdçüləri Cavad Əliyev və Arzu Məmmədzadə ixtisas seçimindən öncə burada olaraq dərslərdə iştirak etdiklərini bildiriblər: "Universitetlə ilk tanışlıqdan sonra böyük və möhtəşəm UNEC ailəsinin üzvü olmağa qərar verdik. Seçimimizdən məmnunuq!"

"Oriyentasiya Günü"ndə Yaradıcılıq Mərkəzinin üzvləri musiqi nömrələri və rəqslərlə çıxış ediblər. Eyni zamanda, UNEC tələbələrinin əl işlərindən ibarət rəsm sərgisi də nümayiş etdirilib. Vokal, rəqs, bədii qiraət və rəssamlıq bacarığı olan I kurs tələbələrinə Yaradıcılıq Mərkəzinə üzvlük qaydaları izah edilib.

Karyera guşəsində tələbələrə seçdikləri ixtisasların əmək bazarındakı əhəmiyyəti barədə ətraflı məlumat verilib, peşəkar mütəxəssis kimi formalaşmaq istiqamətində tövsiyələr olunub. Beynəlxalq Əməkdaşlıq Departamentinin nümayəndələri tələbələrə UNEC-in beynəlxalq əlaqələr sahəsindəki uğurlarından söz açıb, mövcud proqram və layihələr barədə informasiya veriblər.

# "Şərq tərəfdaşlığının 8 ili: uğursuzluqlar, nailiyyətlər, gələcək"




5-7 sentyabr tarixlərində Polşanın Krıniça şəhərində 27-ci Dünya İqtisadi Forumu keçirildi. Polşada hər il keçirilən və 3000-dən artıq qonağın iştirak etdiyi tədbirdə bu il Polşa prezidenti, Polşanın baş naziri, Gürcüstan prezidenti, Makedoniya prezidenti, digər rəsmi şəxslər, eyni zamanda, 100 ölkədən 400-dən çox media nümayəndəsi iştirak edirdi. Mərkəzi və Şərqi Avropanın ən irimiqyaslı konfransı sayılan bu Forumda "Şərq tərəfdaşlıq" proqramının üzvü olan Azərbaycan da "Şərq tərəfdaşlığının 8 ili: uğursuzluqlar, nailiyyətlər, gələcək" adlı plenar sessiyada iştirak etdi. Azərbaycan tərəfdən Forumda Azərbaycan Dövlət İqtisad Universitetinin Elm şöbəsinin müdiri, iqtisad elmləri doktoru, professor Zahid Məmmədov çıxış etmişdir. Zahid müəllimlə bu haqda müsahibəni oxucularımıza təqdim edirik.

**-Zahid müəllim, 27-ci Dünya İqtisadi Forumunda Azərbaycanı təmsil edirdiniz. Ölkəmiz adından çıxış etmək, düşünürəm ki, qürurverici bir hissdir. Oradakı çıxışınız barədə danışardınız.**

- Bir çox ölkələrin iştirak etdiyi belə bir Forumda mənim də məruzəçi olaraq çıxış etməyim, ölkəmizi təmsil etməyim, təbii ki, çox qürurverici və məsuliyyətli bir işdir. Mən orada "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycanda görülən işlər, uğurlar və perspektivlər" mövzusunda çıxış etdim. Məruzəm yüksək səviyyədə qəbul olundu. Təəssüf ki, qonşularımız "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində görülən işlər haqqında danışmaq yerinə, mövzudan kənar çıxış edərək, başqa ölkələrin iqtisadi vəziyyətinə münasibət bildirirdilər: Ukrayna əsas etibarilə Rusiya ilə olan münasibətlərə, Gürcüstan daha çox təhlükəsizlik problemlərinə dair çıxış edirdi. Halbuki,"Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əsas etibarilə bu proqrama daxil olan ölkələrin uğurları müzakirə edilməlidir.

"Şərq tərəfdaşlığı" proqramı haqqında qısaca olaraq bildirim ki, bu, Polşanın təşəbbüsü ilə Avropa Birliyi tərəfindən hazırlanmış bir proqramdır. Bura Ukrayna, Belarus, Moldova, Gürcüstan, Ermənistan və Azərbaycan daxildir. Ukrayna, Moldova və Gürcüstan "Şərq tərəfdaşlığı" proqramının assosiativ üzvüdür. Bilirsiz ki, Ermənistan EvroAsiya iqtisadi blokuna qoşulmuşdur. Azərbaycan tərəfdən isə bu mövzuda danışıqlar gedir.

**- "Şərq tərəfdaşlıq" proqramı Azərbaycan qarşısına hansı məsələləri vacib şərt olaraq qoyur?**

- "Şərq tərəfdaşlıq" proqramında qeyd olunur ki, Azərbaycan sərbəst ticarət zonası yaratmalıdır. Bəli, biz buna hazırıq, bu sahədə işlər gedir. Amma biz ilkin olaraq dünya ticarət təşkilatının üzvü prosedurunu qurtardıqdan sonra bu məsələyə baxmalıyıq. Hörmətli akademik Ziyad Səmədzadənin bu haqda çoxsaylı əsərləri var. O, hər zaman qeyd edir ki, Azərbaycanda güclü iqtisadiyyat qurmadan ümumdünya ticarət təşkilatının üzvü olmaq qəbuledilməzdir. Bunun üçün Azərbaycanda ilk növbədə milli sənaye, milli kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi məsələlərini təmin etmək lazımdır. Cənab prezident 2014-cü ildə qeyd etmişdir ki, bizi ümumdünya ticarət təşkilatına dəvət edirlər, xahiş edirlər, amma biz öz milli iqtisadiyyatımızı gücləndiririk. Milli iqtisadiyyatı gücləndirmədən biz bu gün bu milli təsərrüfatları qura bilməzdik.

Biz yalnız ölkəmizin ərzaq təhlükəsizliyini təmin etdikdən sonra ümumdünya ticarət təşkilatının tamhüquqlu üzvü məsələsinə baxa bilərik. Məsələn, Moldova, Gürcüstan, Ukrayna da bu problemləri həll etmədən ümumdünya ticarət təşkilatına üzv olmuşdular. Bunlar çox vacib problemlərdir və hörmətli akademik bu problemlər barədə geniş yazmışdır.

Biz orada da qeyd etdik ki, Azərbaycan artıq neft kapitalının zənginləşməsi ilə yanaşı, onu insan kapitalına çevirib. Bu gün Azərbaycanda Avropa təhsil sisteminə inteqrasiya prosesi qurulub. Buna qədər isə uzunmüddətli işlər görülüb ki, bunlar da çıxışlarda qeyd olundu.

**- "Şərq tərəfdaşlıq" proqramının Azərbaycan və Avropa ölkələri arasındakı münasibətlər baxımından əhəmiyyəti haqqında nə deyə bilərsiniz?**

- "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əsas olaraq 4 istiqamət müəyyənləşdirilmişdir. Birinci istiqamət demokratiya, insan azadlığı, dövlətin səmərəli idarəetmə sistemi, ikinci iqtisadi inteqrasiya, üçüncü enerji təhlükəsizliyi, dördüncü isə insanlar arasında dialoqdur. Biz bu 4 məsələ ətrafında müzakirələr apardıq. Hazırda Azərbaycanda demokratik sahələrdə çeşidli və ciddi addımlar atılır. Bu gün vətəndaşlar siyasi və iqtisadi idarəetmə proseslərində daha yaxından iştirak edir. İqtisadi inteqrasiyaya gəlincə, Azərbaycan və Avropa Birliyi arasında çox ciddi iqtisadi əlaqələr var. Azərbaycan ixracatının 50%-dən çoxu Avropa ölkələrinin payına düşür. Azərbaycanla Avropa ölkələri arasında sıx ticari investisiya əlaqələri də mövcuddur. Azərbaycan Avropa ilə enerji təhlükəsizliyində də yaxından iştirak edir. Bu gün Azərbaycan "Cənub Qaz Dəhlizi"nə 40 mlrd. dollar vəsait ayırmışdır və Avropa bunu yüksək qiymətləndirir. Dördüncü məsələ - insanlar arasında dialoq, insanlar arasında münasibətlərin genişləndirilməsi artıq Azərbaycanın Avropa ölkələri ilə viza problemlərini də sadələşdirib. Hətta bu vizanın aradan qaldırılması sahəsində ciddi işlər gedir. Bu gün Azərbaycan və Avropa ölkələri arasındakı elm və təhsil sahəsində də sıx əlaqələr var və Azərbaycan Dövlət İqtisad Universitetinin Avropa ölkələri ilə çox ciddi müqavilələri mövcuddur. Artıq azərbaycanlı tələbələr Avropada, avropalı tələbələr isə Azərbaycanda təhsil almaq imkanlarına malikdirlər.

Bununla yanaşı, Azərbaycan Avropanın nəqliyyat sistemində də yaxından iştirak edir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılması ilə əlaqədar Azərbaycan regionu Avropa və Asiya ölkələri ilə körpü rolunu oynamaqdadır. Hazırda Bakıdan birbaşa Avropa ölkələrinə nəqliyyat sisteminin inkişafı ilə əlaqədar danışıqlar gedir.

**-"Şərq tərəfdaşlıq" proqramının üzvlərindən biri də, məlumdur ki, Ermənistandır. Tərəfdaş bir ölkənin işğalçılıq siyasəti yürütməsi ilə bağlı çıxışınızda hansısa fikirlər səsləndirildimi?**

-Təbii ki. Çıxışımda xüsusi olaraq vurğuladığım məsələrədən biri də məhz bununla bağlı idi. Partnyorluq yüksək güvən və etimada əsaslanır. Bu proqramın adı isə "Şərq tərəfdaşlıq" proqramıdır. Lakin partnyorlarımızdan biri bizim ərazi bütövlüyümüzü pozub, bizim torpaqlarımızı işğal edib. Necə ola bilər ki, Avropa partnyorluğu dediyiniz "Şərq tərəfdaşlıq" proqramı çərçivəsində başqa bir dövlət həmin partnyor ölkənin torpağını işğal edib, aqressiya ilə məşğul olur. Bununla əlaqədar olaraq biz xahiş etdik ki, bu məsələlər Avropa Birliyinin sənədlərində öz əksini tapsın.

**- Bəs, iştirakçı ölkələr bu məsələyə necə reaksiya verdilər?**

- Çıxışım zamanı mən artıq reaksiyaları görürdüm. Həqiqətən də, böyük rezonans oldu. "Şərq tərəfdaşlıq" proqramı çərçivəsində Ermənistanın partnyor ölkəyə qarşı işğalçılıq siyasəti ilə bağlı tədbirdə, təbii ki, müəyyən təkliflər də səsləndirildi. Düşünürəm ki, Ermənistanı "Şərq tərəfdaşlıq" proqramından sadəcə çıxarmaq lazımdır.

Bu məsələdə Polşa başda olmaqla bir çox ölkələr Azərbaycanı dəstəklədilər. Polşa 2018-ci ildə BMT-də Təhlükəsizlik Şurasının üzvü olacaqdır. Bu yaxınlarda cənab Prezident İlham Əliyevin də Polşaya səfəri oldu. Strateji tərəfdaşlıq haqqında müqavilə və memorandumlar imzalandı. Mən hesab edirəm ki, Polşa bu mövzuda hər zaman bizi dəstəkləyəcək. AB-nin sənədində bütün bunlar öz əksini tapmalıdır. Avropa Birliyi bilməlidir ki, belə bir ifadəni daşıyan ölkə əgər ərazi bütövlüyünə bu şəkildə yanaşırsa, onu bütün layihələrdən təcrid etmək lazımdır. Bu gün Ermənisatn zatən təcrid olunub. Mən bunu bizi dəstəkləyən ölkələrin sayının çox olmasından hiss etdim.



**- Ermənistanın "Şərq tərəfdaşlıq" proqramından çıxarılması ilə bağlı təklifə qarşı çıxan ölkə oldumu?**

- Əks mövqe bildirən ölkə, demək olar ki, olmadı. Çünki bu problemi Ukrayna da, Gürcüstan da, Moldova da yaşayır. Əslində "Şərq tərəfdaşlıq" proqramına daxil olan ölkələrin çoxunun ərazi bütövlüyü problemi var. Bu problemlərin içərisində ən böyüyü bizik. İlk dəfə dünya tarixində SSRİ dağılmadan, yeni dünya düzəni qurulmadan qara qüvvələr bu eksperimenti Azərbaycan üzərində apardılar. Azərbaycan bu problemi yaşayanda bir çox ölkələr anlamadılar ki, bu problem gec-tez onların da başına gələ bilər. Bu gün biz bunu artıq AB-nin özündə görürük. Yəni, artıq bu problem dünyanı maraqlandıran məsələ olmalıdır. Biz məsələ qaldırdıq ki, Avropa Birliyinin sənədlərində aqressiv dövlətlərə qarşı müvafiq tədbirlərin görülməsi məsələsi gündəmə gətirilməlidir. Avropa seyrçi qalmamalıdır. Bu gün Avropa iqtisadi məsələlərlə daha çox məşğuldur. Amma siyasi, hərbi məsələlər də vacib şərtlərdən biri olmalıdır.

**- Bu proqram çərçivəsində Azərbaycan-Avropa əlaqələrinin perspektivi barədə nə düşünürsünüz?**

-Bilirsiniz ki, fevral ayında cənab prezident AB-nin yüksək rəhbərliyi ilə görüşdü. Bu görüşlər yeni danışıqlara impuls oldu. Hazırda Azərbaycan və Avropa Birliyi arasında möhkəm işlər gedir, komissiya fəallıq göstərir. Noyabrda isə Azərbaycan və Avropa Birliyi arasında yeni müqavilə imzalanacaq. Yəni, Avropada Azərbaycana qarşı böyük bir etimad, güvən var. Azərbaycanın 25 ildir ki, apardığı sülhsevər, balanslaşdırılmış və çoxvektorlu, polyarlı siyasət ona olan etimad və güvəni artırmışdır. Mən çıxışımda da bunları qeyd etdim. Biz hesab edirik ki, Avropa-Azərbaycan münasibətlərinin güclənməsi üçün noyabr ayında imzalanacaq sənədin böyük əhəmiyyəti olacaqdır. Düşünürəm ki, bu sənədlər yeni partnyorlar tapmaq baxımından da əhəmiyyətli olacaqdır. Çünki bizimlə bərabər orada Azərbaycan biznesmenləri, Azərbaycan biznes dairəsinin nümayəndələri iştirak edirdilər ki, onların da məqsədi yeni partnyorlar tapmaq, Azərbaycanın gələn il Forumda sərgisini təşkil etmək və ora iş adamlarını qəbul etməkdir.

Onu da qeyd edim ki, oktyabr ayında Azərbaycan Respublikası və Polşa Respublikası arasında imzalanmış müqavilə çərçivəsində Polşa iş adamlarının Azərbaycana səfəri də gözlənilir. 100-ə yaxın təcrübəli, dünya markası sayılan iş adamlarına rəhbərlik edəcək işçi qrupunun Azərbaycan üzrə nümayəndəsi isə Caspian European Club-un idarə heyətinin sədr müavini, hüquq üzrə fəlsəfə doktoru Mustafa Abbasbəylidir. Polşadan olan David, Mirkalaş, xüsusilə Polşa Şərqi Araşdırmalar İnstitutunun nümayəndələrini Azərbaycanla bağlı çox ciddi işlər aparmaları münasibətilə təbrik edirəm. İşçi qrupu səfər çərçivəsində Azərbaycan və Polşa arasında iqtisadi əlaqələrin genişləndirilməsi üzrə sənədlər, təkliflər hazırlayacaq və müvafiq hökumətə təqdim edəcəklər.

**- Hazırda "Şərq tərəfdaşlıq" proqramı çərçivəsində UNEC-in gördüyü işlər barədə nə deyə bilərsiniz?**

-Hazırda Polşanın göndərişi ilə Azərbaycan Dövlət İqtisad Universitetinə doktorantlar da gəlir. Onların dissertasiya mövzusu əsas olaraq "Şərq tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan və Şərq ölkələri arasında iqtisadi əlaqələrin gücləndirilməsi ilə bağlıdır. Polşadan Sainslav, Mirkalaş, Türkiyədən Mehmet Əli kimi böyük tədqiqatçılar gəlir. UNEC "Şərq tərəfdaşlıq" proqramı çərçivəsində nəzərdə tutulmuş 4-cü hissə, yəni elmi əlaqələrin genişləndirilməsi üçün ciddi işlər aparır. Bununla əlaqədar olaraq UNEC-də Avropa ölkələrinin alimlərinin iştirakı ilə çoxsaylı elmi tədbirlər keçirilir. Bu ilin iyun ayında UNEC-də "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli mövzusunda" kimya üzrə Nobel mükafatı laureatı, ABŞ-ın Şimali Karolina Universitetinin professoru və əslən türk olan Əziz Sancarın iştirakı ilə təşkil olunmuş və akademik Ziyad Səmədzadənin də iştirak etdiyi tədbiri xüsusilə qeyd etmək yerinə düşərdi.

Avropalılarla biz bu məsələləri müzakirə etdik. "Təhsil, elm, innovasiya formatına keçid, dünya təcrübəsi və "Şərq tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan" mövzusunda böyük elmi seminar da keçiriləcək. ADİU-nun əldə etdiyi uğurlar da bizə haqq verir ki, orada çıxış edək və UNEC-in stendini yaradaq.

Son olaraq qeyd edim ki, Azərbaycanlı iş adamlarının Forumlarda iştirak etməsi və "Made in Azərbaycan" brendini daha çox ölkədə, özəlliklə Avropa bazarında tanıtmaq çox təqdirəlayiq haldır. Hazırda Rusiya, Belarus bazarlarında Azərbaycan ticarət evləri açılıb. Bununla yanaşı, mən hesab edirəm ki, bizim Avropa Birliyi ölkələrinə də öz brendimizi tanıtmağımız vacib şərtlərdən biridir.

Gələn il təşkil olunacaq Polşa İqtisadi Forumuna "İqtisadiyyat" qəzeti də dəvət olunacaq. Bu il orada iştirak edən qəzetlərin əksəriyyəti siyasi yönümlü idi. İqtisadiyyat yönümlü qəzetlərdən biri kimi mən "İqtisadiyyat" qəzetini təklif etdim və onlar da böyük məmnuniyyətlə qəbul etdilər.

**Çox sağ olun, Zahid müəllim. Qəzetimizi bu mötəbər tədbirdə iştiraka dəvət etdiyinizə görə Sizə minnətdarıq.**

**Müsahibəni apardı:**
**Mətanət Hüseynova**

# Компания Bakcell провела интенсивный тренинг для девелоперов на тему развития связей с инвесторами

Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell провела второй обучающий семинар для девелоперов, участвующих в программе Applab.

Тренинг под названием «Интенсивный курс по развитию связей с инвесторами», охватил все аспекты построения отношений между стартапами и инвесторами.

Одним из самых важных моментов в управлении инвестициями является построение правильных отношений с инвестором. В последние годы в сфере стартапов наблюдается своего рода «бум», и благодаря этому, команды и проекты находятся в постоянном поиске кандидатов на такие должности как «Сотрудник по связям с инвесторами» или «Сотрудник по развитию связей с инвесторами».

В ходе семинара, участники узнали много полезного о том, как выглядеть органично и естественно, общаясь с инвесторами, получили информацию о верных способах правильного представления своего продукта, а также ознакомились с понятием «презентация в лифте» (т.е. представление продукта за две минуты).

«Благодаря этому курсу, я научился понимать мышление и поведение разных типов инвесторов. Теперь, даже если я внезапно встречу потенциального инвестора в лифте, я уверен, что смогу продать ему свой продукт и установить первоначальный контакт», говорит один из создателей проекта Blutu, Ахмед Халафбейли.

Данные тренинги, организуются совместно с "Тренинг-центром CAC", являющимся одним из ведущих центров страны, по предоставлению таких услуг как тренинги, аттестация и консалтинг.

В ближайшие месяцы, Bakcell проведет тренинги для девелоперов, на такие темы как «питчинг», технология «блок-чейнов», управление проектами и др.

# В Баку проходит Caspian Energy Transport Forum



20 сентября в Баку при поддержке Министерства транспорта, связи и высоких технологий начал работу Caspian Energy Transport Forum.

Транспортная сфера в Азербайджанской Республике, обладающей благоприятным географическим положением, имеет особое значение для международного транзита. В транспортном секторе реализуются крупные региональные проекты, которые служат развитию сектора, укреплению транзитного потенциала нашей страны, обеспечению транспортной безопасности. Об этом сказал министр транспорта, связи и высоких технологий Рамин Гулузаде на открытии форума.

Министр отметил, что благодаря осуществляемым мерам облегчаются пассажиро- и грузоперевозки, что напрямую влияет на развитие экономики страны, регионов.

В форуме, проходящем в рамках Caspian European Club и Caspian American Club, принимают участие руководители Государственной морской администрации Азербайджанской Республики, ЗАО «Азербайджанские железные дороги», ЗАО «Азербайджанское Каспийское морское пароходство», ЗАО «Азербайджанские авиалинии» (АЗАЛ), ЗАО «Бакинский Международный морской торговый порт» и ЗАО «Бакинский метрополитен».

# Первый класс остался позади



*Двери школа отворила,*
*Во второй идешь ты класс.*
*Знаний день.*
*В них супер сила:*
*Поумнеешь в сотни раз.*

Пришел жаркий бакинский сентябрь. Еще совсем недавно был праздник Азбуки. Но уже начались и закончились наши первые в жизни летние каникулы. Я перешла во второй класс! И сама не заметила, как стала старше на целый год. И прошлогодние туфельки стали маленькими. Мы снова в школе! Я встречаю заботливую, вежливую, добрую и любимую учительницу Любовь Михайловну. Я очень скучала по Любовь Михайловне. Мы по телефону общались. Но встретиться это совсем другое дело. Сколько всего интересного я могу рассказать Любовь Михайловне. Как провела лето, как ездили на море, как отдыхали на природе, читала книги и журналы, выучила стижки, решала кроссворды, сканворды, ребусы и смотрела мультики.

А также красивые и интересные дали нам в школе учебники. Даже Любовь Михайловна тоже мне подарила очень интересные книги. Хочется научиться всему и сразу. Но впереди весь учебный год. Мы все успеем.

С Новым учебным годом Вас Любовь Михайловна! Желаю Вам крепкого здоровья и успехов в новом учебном году.

Любимый мой учитель
Ты такой родной
Самый умный в мире
Самый дорогой
Нас всегда поддержишь,
Нас всегда поймешь
За нас на себя ответственность,
Ты на себя берешь
Ты учишь нас, по жизни
Как лучше поступать
И даже после школы
Тебя будем любить !

**Слепенко Александра,**
**ученица 2 класса,**
**школы №219 г. Баку.**

# Скорость 4G Azercell теперь в Гяндже!

Лидер мобильной связи обеспечил сетью 4G 99% территории второго по величине города Азербайджана.

Компания Azercell Telekom, поставившая цель обеспечить услугами высокоскоростного мобильного интернета не только столицу Баку, но и все регионы страны, уже предоставила в пользование абонентов услугу 4G во втором по величине городе Азербайджана Гяндже. В целом в городе установлено 23 базовых станций, что обеспечивает сетью 4G 99% Гянджи.

«Как мы и обещали, Azercell устанавливает сеть 4G и в регионах, а наши абоненты древнего города Гянджи уже могут воспользоваться этой услугой. Принимая во внимание постоянное увеличение спроса наших абонентов на высокоскоростной мобильный интернет, мы продолжаем расширять охват сети 4G на территории страны. Наша цель заключается в том, чтобы абоненты Azercell могли пользоваться высококачественными услугами и скоростным интернетом на всей территории страны. Хотелось бы также подчеркнуть, что еще одним приятным моментом является то, что по инициативе Фонда Гейдара Алиева через несколько дней, 17 сентября в Гяндже состоится марафон. Azercell Telekom является главным партнером Гянджинского Марафона, и мы постарались предоставить сеть 4G в пользование гянджинцев и участников марафона именно накануне этого грандиозного мероприятия» - заявил президент компании Вахид Мурсалиев.

Компания Azercell, обладающая первой и крупнейшей сетью LTE (4G), продолжает демонстрировать положительную динамику развития мобильного интернета. По сравнению с прошлым годом в 2017 году число пользователей интернета 4G Azercell увеличилось в 5 раз, а объем использования мобильного интернета на 55%. В течение прошлого года Azercell усилила свою сеть 4G на 84.1%.

До конца 2017 года Azercell Telekom планирует сдать в эксплуатацию 127 станций 4G по всей Республике, 33 из которых приходятся на долю городов Баку, Сумгаит и Апшерон, а 94 - на долю регионов. Однако стоит отметить, что Azercell Telekom, наряду с расширением сети и повышением качества услуг, желает сделать скоростной интернет еще более доступным и выгодным для своих абонентов. С этой целью компания предлагает своим абонентам различные льготные тарифные пакеты и эксклюзивные кампании. Более подробную информацию об услугах и тарифах Azercell можно получить на сайте

# Azercell - эксклюзивный партнер "Гянджинского Марафона - 2017"



Помимо официальной поддержки компании, десятки сотрудников Azercell подключившись к марафону, приняли участие в шествии, протяженностью 17 км.

Компания Azercell Telekom, являющаяся вестником проектов, направленных на развитие спорта, пропаганду здорового образа жизни в нашей стране, выступила в качестве эксклюзивного партнера проекта "Гянджинский марафон - 2017", организованного 17 сентября по инициативе Общественного Объединения Регионального Развития (ООРР) Фонда Гейдара Алиева и при поддержке Исполнительной власти города Гянджи. Жемчужина древней культуры Азербайджана, Гянджа стала первым городом, принявшим межрегиональный марафон под лозунгом «Создай историю благодаря своей воле!». Марафон протяженностью 17 километров, охватывающий 11 тысяч участников из различных стран, стартовал в Гяндже с «Зафар Тагы» («Триумфальная арка») и завершился в парковом комплексе Гейдара Алиева.

Миссия данного проекта, в котором приняли участие около 60 сотрудников Azercell во главе с президентом компании Вахидом Мурсалиевым, является создание новой культуры в истории спорта Азербайджана. Проект нацелен на поддержку развития спорта в регионах, пропаганду здорового образа жизни, а также идей солидарности во имя благородных целей среди людей различного возраста в отдельных регионах Азербайджана. Марафон также создает чувство социальной солидарности в обществе, в котором люди массово и регулярно занимаются спортом.

# Новый конкурс от Azercell




Присоединяйтесь к конкурсу "Ganja Big Idea Competition" и создайте свой собственный бизнес

Центр инноваций и предпринимательства «Barama» компании Azercell Telecom совместно с PASHA Bank и Азербайджанским Технологическим Университетом запустили новый конкурс для стартапов. Впервые, проводимый в городе Гянджа конкурс идей «Ganja Big Idea Competition», дает возможность студентам из регионов развивать свои бизнес-идеи и выигрывать призы.

Авторы лучших 10 презентаций будут выбраны в качестве финалистов, и 12 октября будут объявлены на веб-сайте «Barama» и отправлены по электронной почте всем участникам. В финале, который состоится 16 октября, команды представят свои идеи арбитражному суду. Команды должны будут подготовить презентацию с бизнес-планом и выступить в течение 10 минут.

Победившие команды получат следующие призы:

1-е место - подарочный купон на 500 манатов

2-е место - подарочный купон на 300 манатов

3-е место - подарочный купон на 200 манатов

Также, Центр Инноваций и Предпринимательства «Barama» предлагает участникам конкурса инкубационные и другие услуги по сотрудничеству для успешных проектов.

Цель конкурса «Ganja Big Idea Competition» разнообразная, в том числе нахождение инновативных идей для мобильных приложений, Интернета, программного обеспечения, игр, программ для обслуживания, корпоративного программного обеспечения, новых бизнес-моделей, услуг, роботов, информационных технологий и бытовой электроники, здравоохранения, сельского хозяйства, идеи для не нефтяного сектора и химии в области информационных технологий.

Центр инноваций и предпринимательства «Barama» предлагает молодым стартапам принять участие в конкурсе «Ganja Big Idea Competition» и реализовать свою мечту по созданию бизнеса.

Таким образом, «Идея от вас – Поддержка от нас!».

# Azercell дал старт I Футбольному Турниру среди своих клиентов




Мобильный оператор организует первое любительское спортивное соревнование среди компаний, которым оказывает услуги.

Всем известно, что Azercell Telecom осуществляет различные проекты по развитию спорта, а также пропаганде здорового образа жизни в нашей стране. На этот раз компания выступила с интересной и полезной инициативой для своих корпоративных абонентов. Таким образом, ведущий мобильный оператор организовал I Футбольный Турнир за Кубок Azercell среди корпоративных клиентов. 8 сентября состоялась церемония жеребьевки , в которой также участвовали представители всех команд и был разглашен регламент турнира.

Таким образом,состоящий из 12 команд чемпионат будет состоять из группового этапа (т.е. 5 игр), 1 \ 4 финала, полуфинала и финала.

Игры будут проводиться начиная с 11 сентября по понедельникам, вторникам, четвергам и пятницам в 19:00 на футбольной площадке головного офиса Azercell Telecom. Турнир,на котором запланировано проведение 3-х игр в день, продлиться 1 месяц. В этом турнире принимают участие представители таких ведущих компаний, как Kapital Bank, North West Construction, Caspian Media, Unibank, Сумгаитский Технологический Парк, Gilan Holding, TOPAZ, Azertexnolayn, Azeri M-İ, AA Services, Coca-Cola.

Следует отметить, что на протяжении всей своей деятельности компания Azercell неоднократно осуществляла такого рода социальные инициативы среди людей с разными физическими данными, людей различных возрастных и профессиональных категорий, а также среди своих сотрудников. Сотрудники компании часто становились чемпионами футбольных соревнований, организованных различными официальными и бизнес-структурами.

Не случайно, что компания, которая всегда находится на пути развития спорта и здорового образа жизни в нашей стране, является эксклюзивным партнером проекта «Гянджа марафон-2017», который состоится 17 сентября по инициативе Фонда Гейдара Алиева.

Компания выражает особую благодарность Xəzər TV и компании Coca-Cola за оказываемую поддержку на I Футбольном Турнире за Кубок Azercell, желает успехов всем участвующим командам и надеется в результате данного турнира на дальнейшее укрепление дружеских отношений и сотрудничества между компаниями, представляющими команды!

# Ekspert rəyi

# Kreditin qanunsuz alınması və kreditdən təyinatı üzrə istifadə etməmə nədir?

***Hüquq üzrə fəlsəfə doktoru, "AtaBank" ASC-nin İdarə Heyəti sədrinin müavini, ekspert Səbuhi Əliyev*** bu barədə münasibət bildirərək qeyd etmişdir ki, kredit münasibətləri sahəsində inzibati xətalarla və cinayətlərlə mübarizə aparmaq aktual vəzifələrdən biri hesab edilərək, priorotet əhəmiyyət kəsb edir. Bu, onunla izah edilir ki, kredit münasibətləri maddi vəsaitlərin müvəqqəti olaraq çatışmadığı (kifayət etmədiyi) bir şəraitdə fasiləsiz təsərrüfat fəaliyyətinin həyata keçirilməsinə imkan verir, həmçinin iqtisadi fəaliyyət sahəsində müvəqqəti olaraq sərbəst qalmış maddi resurslardan rasional və effektiv istifadə olunmasını təmin edir. Məhz bu səbəbdən həmin münasibətlər böyük xalq təsərrüfatı əhəmiyyətinə malikdir. Odur ki, kredit münasibətləri inzibati xətalardan, cinayətkar qəsdlərdən qorunmalı, cinayət hüquq pozuntusundan və ictimai təhlükəli kriminal əməllərdən müdafiə edilməlidir. Həm də ona görə ki kredit münasibətləri sistemi pul bazarının inkişafını ifadə edir, bank (ssuda) kapitalını formalaşdıraraq onun iqtisadiyyatın bir sektorundan digər sektoruna axınını (hərəkətini) təşkil edir, əlverişli investisiya mühiti yaradır, aktiv şəkildə sərmayə qoyulmasına təsir göstərir, pul-kredit və ödəniş dövriyyəsində onun qaydalarını müəyyənləşdirir. Unutmaq olmaz ki, istehsalın strukturu və təsərrüfat fəaliyyətinə bilavasitə təsir göstərən məcmu təklif (təkliflər məcmusu) xeyli dərəcədə kredit münasibətləri ilə şərtlənir. Obrazlı şəkildə təkcə bunu demək kifayətdir ki, kredit münasibətlərinin əsas



subyekti və başlıca iştirakçısı olan banklar bütün xalq təsərrüfatına nüfuz (sirayət) edən "qan damarları" sistemi hesab olunur. Bununla yanaşı, iqtisadiyyatın strateji sahələrindən biri sayılan kredit münasibətləri kriminal qəsdlərin yönəldiyi və cinayət hüquq pozuntularının törədildiyi sferadır. Aparılan tədqiqatlar bunu deməyə əsas verir ki, son zamanlar bank kapitalı sferası iqtisadiyyatın ən kriminogen sektorlarından birinə çevrilmişdir; bu gün həmin sferada cinayətkarlığın tempi artmaqda davam edir.

Ekspert bildirir ki, kreditin qanunsuz alınması və ya kreditdən təyinatı üzrə istifadə edilməməsi qanunvericiliyə əsasən, inzibati xəta və eyni zamanda, cinayət əməlidir. Belə ki, AR İnzibati Xətalar Məcəlləsinin 409-cu maddəsinə əsasən, təşkilatın rəhbəri və ya fərdi sahibkar tərəfindən təşkilatın, yaxud fərdi sahibkarın təsərrüfat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatlar verməklə kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin alınmasına, yaxud ondan təyinatı üzrə istifadə edilməməsinə görə inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə edilir. Eyni zamanda, AR Cinayət Məcəlləsinin 195-ci maddəsinə əsasən, təşkilatın rəhbəri və ya fərdi sahibkar tərəfindən təşkilatın, yaxud fərdi sahibkarın təsərüffat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatlar verməklə kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin alınması, habelə ondan təyinatı üzrə istifadə edilməməsi xeyli miqdarda ziyan vurduqda, cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər külli miqdarda ziyan vurduqda, cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd olunan əməl üzrə cinayət tərkibinin yaranması üçün AR Cinayət Məcəlləsinin 195-ci maddəsinə əsasən, xeyli miqdarda, yəni iyirmi min manatdan yuxarı məbləğdə ziyanın vurulması şərtləndirilir. Nəticədə, qeyd olunan məbləğdən aşağı ziyan vurularsa, əməl inzibati xəta hesab olunacaqdır.

Göstərilən maddələr üzrə kredit alan tərəfindən verilən yalan məlumatlar təsərrüfat subyektinin həyata keçirdiyi fəaliyyətin maliyyə nəticələrinə aid olmalıdır. Məsələ burasındadır ki, məhz təsərrüfat subyektinin həyata keçirdiyi fəaliyyətin maliyyə nəticələri onun maliyyə vəziyyətini əks etdirir. Nəzərə almalıyıq ki, maliyyə vəziyyəti də öz növbəsində təsərrüfat subyektinin həyata keçirdiyi fəaliyyətin maliyyə nəticələrini xarakterizə edir.

Qanunvericilik yalan məlumatlar əsasında bankın öz vəsaiti hesabına verdiyi bütün növ kreditlərdən (biznes, istehlak və s.) başqa, eyni zamanda, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin (ipoteka krediti, sahibkarlara dövlət tərəfindən verilən güzəştli kreditlər və s.) də alınması barədə məsuliyyət müəyyən etmişdir.

Qeyd olunan normalara əsasən, kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin təyinatı üzrə istifadə edilməməsi, yəni təşkilatın rəhbərinin və ya fərdi sahibkarın öncədən banka (kredit təşkilatına) bəyan edərək aldığı krediti digər bəlli olmayan sahələrə sərf etməsi də məsuliyyətə səbəb olur. Məqsədli dövlət kreditinin konkret məqsəd üzrə ayrıldığı normativ qaydada təsdiqləndiyi üçün bu növ kreditin sahibkarın arzu etdiyi digər məqsədlərə, ümumiyyətlə, sərf olunmasına yol verilmir.

Xüsusilə, qeyd olunmalıdır ki, nəticə etibarı ilə kreditorun mənafeyinin pozulması baxımından kreditin təyinatı üzrə istifadə olunmaması əməli kreditin qanunsuz alınması əməlindən öz ictimai təhlükəliliyinə görə fərqli deyildir. Belə ki, hər bir bank kredit verməzdən öncə kredit alanın fəaliyyəti, iqtisadi imkanları və ən əsası kreditin təyinatı, yəni hansı istiqamətə sərf olunacağı barədə araşdırma apararaq, rəy hazırlayır. Burada məqsəd alınan kreditin sərf olunacağı sahənin nə dərəcədə riskli olmasını, iqtisadi cəhətdən səmərəli olacağını, beləliklə də verilən kreditin geri qaytarılması istiqamətində problemlərin yaranmayacağını təhlil etməkdir. Subyekt bankı aldadaraq aldığı krediti təhlil olunmuş təyinat üzrə deyil, başqa təyinat üzrə sərf etdikdə, təbiidir ki, burada həmin sahə iqtisadi cəhətdən əlverişli olmadığı üçün böyük risk yaradır. Belə ki, subyekt krediti sərf etdiyi başqa təyinatın riskli olmasını bilir və bunu biləərəkdən bankdan gizlədir və əsassız risqə gedir; əgər o, kreditin həmin təyinat üzrə sərf olunacağını banka bildirsəydi, bank tərəfindən kreditin verilməsindən birmənalı şəkildə imtina olunacaqdır ki, bu da kreditorun (bankın) gələcək ziyandan qorunması olardı. Göründüyü kimi, kreditin təyinatı üzrə istifadə olunmaması banka ziyan vurmaqla yanaşı, bankın birbaşa mənafeyinə zidd olan inzibati və cinayət əməlidir.

Ekspert hesab edir ki, belə əməllər bank fəaliyyətinə qarşı daha çox törədilən, lakin latent qalan (qeydiyyata alınmayan) əməllərdir: Şübhəsiz, deyə bilərik ki, statistik rəqəmlər bəzi hallarda təcrübə ilə təzadlı məqamlar yaradır. Xüsusilə, praktikada bank fəaliyyəti əleyhinə törədilən cinayətlər kimi tanınan qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə kimi əməllərin geniş yayılmasına baxmayaraq, belə əməllərlə mübarizə lazımi səviyyədə aparılmır. Belə mübarizənin aparılmamasının müxtəlif səbəbləri vardır ki, onlardan başlıcası bankların özünün passivliyi ilə bağlıdır. Belə ki, məsələn, bankdan qanunsuz kreditin alınması kreditin verilməsindən bir müddət sonra, müxtəlif yoxlamalar nəticəsində bank tərəfindən aşkar olunduğu hallarda, bəzən onlar tərəfindən əmələ hüquqi qiymət verilməsi üçün hüquq-mühafizə orqanına müraciət edilmir. Bunun səbəbi əksər hallarda bankın kredit alan ilə razılaşaraq, öhdəliyin yerinə yetirilməsi və ya bankın öz imicini "itirməməsi" qənaətinə gələrək, müştərilərə güzəştə getməsi ola bilər.

İkinci başlıca səbəb, hüquq-mühafizə orqanları tərəfindən bu tip şikayətlərin araşdırılmaması ilə bağlı olub, onların bankla kredit alanı müqayisələndirərək, əsassız olaraq "güclü" tərəf saydığı bankın tələbi ilə "zəif" hesab etdiyi kredit alanı, xüsusilə cinayət cəzasına məhkum etməyin adekvat olmadığını düşünmələridir. Əksər hallarda bankların bu cür şikayətlərinə dair, xüsusilə cinayət təqibini həyata keçirən orqan tərəfindən işin mülki xarakter daşıması və əməldə cinayət tərkibinin olmaması səbəbiylə cinayət işinin başlanmasından imtina olunması barədə qərar qəbul edilir. Unutmaq olmaz ki, qeyd olunan əməl inzibati xəta və ya cinayətdir, cəzalandırılmalıdır və qeyd olunan səbəbdən bu növ əməllərin latent qalmaması üçün effektiv üsullarla mübarizə aparılmalıdır.

Ekspert kesab edir ki, AR İnzibati Xətalar və Cinayət Məcəllələrinin qeyd olunan maddələri belə əməllərlə mübarizə aparmaq üçün qüsurludur. Belə ki, banklardan əksər hallarda yalan məlumatlar əsasında kredit alanlar sahibkar olmayan adi fiziki şəxslər olur ki, qanunvericilik bu əmələ görə sahibkar olmayan fiziki şəxslər barəsində məsuliyyət müəyyən etmir, məsuliyyət yalnız təşkilatın rəhbəri və ya fərdi sahibkar barəsində müəyyən olunmuşdur.

## Əfqan İsayev: "12,3 milyard dolların 7,6 milyard dolları xərclənib"




"Cənub Qaz Dəhlizi" layihələrində "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin (CQD) mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsi üçün 2014-2020-ci illər üzrə ümumi tələb olunan təqribən 12,3 milyard ABŞ dolları məbləğində vəsaitdən bu il sentyabrın 15-dək 7,6 milyard dollarlıq hissəsi, yəni təxminən 62 faizi icra edilib.

Bu barədə açıqlamasında "Cənub Qaz Dəhlizi" QSC-nin baş direktoru Əfqan İsayev deyib.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 2014-cü il tarixli 25 fevral Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin seqmentlərini "Şahdəniz Mərhələ 2", "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi", Trans-Anadolu (TANAP) və "Trans-Adriatik" (TAP) layihələri təşkil edir. Bu boru xətti Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan "Cənub Qaz Dəhlizi" vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

## "Manat bahalaşa bilər, amma düşünməliyik"

"Tədiyyə balansı müsbət olarsa, manatın möhkəmlənməsi trendi formalaşa bilər".

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri E.Rüstəmov manatın möhkəmlənməsinin mümkün perspektivləri ilə bağlı jurnalistlərin sualını cavablandırarkən bildirib.

Manat üzən məzənnə rejimindədir. Tədiyyə balansı müsbət olarsa, manatın möhkəmlənməsi trendi formalaşa bilər. Lakin bunu bazar həll edir. Sadəcə olaraq, hökumət və AMB düşünməlidir ki, bütünlükdə manatın möhkəmlənməsi ölkədə həyata keçirilən iqtisadi strategiyaya nə dərəcədə uyğundur.



Burada ixracın dəstəklənməsi və şaxələndirilməsi diqqət mərkəzində olmalıdır", - deyə AMB sədri əlavə edib.

Qeyd edək ki, manatın bahalaşması (dollar qarşısında möhkəmlənməsi) ixracatçıların gəirlərinin manat ilə ifadədə azalmasına, ucuzlaşması isə artmasına səbəb olur. İdxal məhsullarında isə əks proses baş verir.

## Profisit 2 dəfədən çox artıb



Azərbaycanın 2017-ci ilin II rübündə tədiyyə balansı 966 milyon ABŞ dolları həcmində profisitlə tamamlanıb.

İlk rübdə bu profisit 464 milyon dollara bərabər olub. Nəticədə, II rübdə tədiyyə balansında yaranan profisit rüblük müqayisədə 2,1 dəfə artıb. Qeyd edək ki, yarımillik profisit isə 1 milyard 430 milyon dollara yüksəlib.

Xatırladaq ki, 2014-cü ilin son rübündən etibarən Azərbaycanın tədiyyə balansı kəsirlə tamamlanmağa başlayıb və bu durum 2016-cı ilin ilk rübünə qədər davam edib.

Ötən ilin II rübündə stabilləşmə bərpa olunub və tədiyyə balansı 18 milyon dollar həcminə profisitlə yekunlaşıb. Həmin ilin III rübündə profisit 62 milyon dollar, IV rübdə 651 milyon dollar təşkil edib.

## Nazir: AYİB Beynəlxalq Bankın özəlləşdirilməsinə maraq göstərir



Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycan Beynəlxalq Bankının (ABB) özəlləşdirilməsinə maraq göstərir.

Bunu maliyyə naziri Samir Şərifov bəyan edib.

Öncə AYİB prezidenti Suma Çakrabarti qeyd edib ki, bank ABB-nin payının alışında maraqlıdır.

"ABB-nin xarici öhdəliklərinin təkrar strukturlaşdırılması prosesi başa çatıb. Prezidentin müvafiq fərmanında bu proses başa çatdıqdan sonra ABB-də bankın özəlləşdirilmə işlərinə başlanması nəzərdə tutulur. Bununla əlaqədar AYİB bu məsələ ilə maraqlanır və biz müzakirələri davam etdirəcəyik", - S.Şərifov çərşənbə axşamı jurnalistlərə bildirib.

Onun sözlərinə görə, bütövlükdə AYİB-in ABB-nin özəlləşdirilməsində iştirakı barədə danışmaq hələlik tezdir.

S.Şərifov əlavə edib ki, Azərbaycan hökuməti ABB-nin özəlləşdirilməyə hazırlığı çərçivəsində təcrübəli beynəlxalq məsləhətçi cəlb etməyi planlaşdırır. "2018-ci ilin əvvəlində bankın özəlləşdirilməyə hazırlığı işlərinə başlamaq olar", - nazir vurğulayıb.

## VİDA SÖZÜ

# Azərbaycan milli iqtisadi fikir tarixinin dərin tədqiqatçısı



**Azərbaycan milli iqtisadi fikir tarixinin tədqiqatçılarından biri, yüksək ziyalı, zəhmətkeş alim, qayğıkeş müəllim, gözəl insan Xosrov Kərimov sıralarımızı tərk etmişdir. Bu, hər birimiz üçün, Azərbaycan iqtisad elmi üçün ağır itkidir.**

X.Ş.Kərimov 1949-cu ildə Quba rayonunun Talabi kəndində anadan olmuşdur. O, Azərbaycan milli iqtisadi fikir tarixinin aktual problemlərinin araşdırılması istiqamətində uzun illər ərzində fədakar alim və pedaqoq kimi fəaliyyət göstərmişdir.

Ali təhsilini 1967-1971-ci illərdə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda aldıqdan sonra, 1971-1976-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspirantı, 1976-1985-ci illərdə həmin institutda kiçik elmi və baş elmi işçi vəzifələrində çalışmışdır.

X.Ş.Kərimov 1985-1990-cı illərdə Bakı Dövlət Universitetinin Siyasi İqtisad kafedrasının baş müəllimi, 1990-cı ildən İqtisadi nəzəriyyə kafedrasının dosenti vəzifələrində çalışmış, eyni zamanda, uzun müddət "AMEA xəbərləri" İqtisadiyyat seriyası jurnalının redaksiya heyətinin üzvü və məsul katibi olmuşdur. O, hətta tam ştatla BDU-nun müəllimi olduğu illərdə belə AMEA İqtisadiyyat İnstitutundakı elmi fəaliyyətindən aralanmamış, Azərbaycanın müxtəlif dövrlərdə yaşamış görkəmli ədib və mütəfəkkirlərinin yaradıcılığında iqtisadi fikirləri aşkara çıxarıb elmi dövriyyəyə buraxmışdır.

X.Ş.Kərimov XX əsr Azərbaycan iqtisadi tarix elminin təşəkkülündə əvəzsiz xidməti olan, bilavasitə bu məktəbin banisi və görkəmli nümayəndəsi akademik Əlisöhbət Sumbatoğlu Sumbatzadənin (1907-1992) ən layiqli və sadiq davamçılarından biri idi. O, mərhum akademikin elmi yaradıcılığı və iqtisadi fikir tarixində rolu və xidmətlərini öz sanballı məqaləsində çox ətraflı şərh etmişdir.

Onun Azərbaycan Xalq Cümhuriyyəti dövründə aparılan iqtisadi siyasətə və Cümhuriyyətin qurucularından biri M.Ə.Rəsulzadənin sosial-iqtisadi sistemin məzmunu və təkamülü haqqında baxışlarına dair tədqiqatları və müvafiq konfranslarda çıxışları həmin dövrün dəyərləndirilməsində ən qiymətli əsərlərdən sayılır.

X.Ş.Kərimovun xüsusən, Azərbaycanda iqtisad elminin formalaşmasında və təşəkkülündə əhəmiyyətli rolu olan sovet və postsovet dövrü iqtisadçı alimlərinin – professor H.Ə. Dadaşov, AMEA-nın müxbir üzvləri - professor B.Y.Axundov, T.S.Vəliyev, professor M.M.Allahverdiyev, akademik Ziyad Səmədzadə, Ş.M.Muradov, professor S.K.Hüseynov və başqalarının yaradıcılığı haqqında araşdırmaları və nəşr etdirdiyi əsərləri diqqəti cəlb edir. Həmin alimlərin çox dar dairədə məlum olan, zamanında və hətta indi də aktuallığını itirməyən çoxsaylı əsərlərini elmi dəyərini vermişdir. Mübaliğəsiz demək olar ki, həmin iqtisadçıların bir qisminin iqtisadiyyat elmi sahəsində həqiqi xidmətləri və hətta ictimaiyyət tərəfindən tanınması məhz onun araşdırmalarından sonra baş vermişdir.

Təəssüfləndirici bir məqamı da vurğulamaq istəyirik ki, təvazökarlığı, əməksevərliyi və sadəliyi ilə fərqlənən X.Ş.Kərimov respublikada milli iqtisadi fikrin müxtəlif tarixi mərhələlərində yaşayıb yaratmış görkəmli fikir xadimlərinin, iqtisadçı alimlərin yaradıcılığındakı bir çox mühüm incəliklərin və dəyərlərin xüsusi qabardılaraq Azərbaycan elmi ictimaiyyətinə çatdırmasına baxmayaraq, özünün faydalı elmi fəaliyyəti, tədqiqatlarının əsas istiqamətləri barəsində rəsmi olaraq İnstitutdakı şəxsi sənədlərində təqdimat xarakterli də olsa, ümumiləşdirilmiş informasiya qoymamışdır. Təbiidir ki, bütün bunlar onun təvazökarlığından irəli gəlirdi və heç vaxt özünün yaradıcılığı haqqında danışmağı, öz xidmətlərini qabartmağı sevməzdi. Görünür, Xosrov müəllim elədiklərini öz həmkarlıq, peşə və vətəndaşlıq borcu hesab edirdi.

O, 100-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiya, 19-u dərslik və dərs vəsaiti, onlarla monoqrafiyaların, dərsliklərin və dərs vəsaitlərinin, metodik iş və proqramların, həmçinin terminoloji və izahlı lüğətin müəllifi (şərikli) və redaktoru olmuşdur.

X.Kərimovun elmi yaradıcılığında bir neçə istiqamət diqqəti cəlb edir. Birinci istiqamət kimi, ən qədim dövrlərdən müasir dövrə kimi Azərbaycan milli iqtisadi fikrinin formalaşması və təşəkkülü mərhələləri araşdırılmış, onların xüsusiyyətləri göstərilmiş, elmi təhlili əsasında dəyərləndirilmişdir. İqtisadi fikir tarixi üzrə peşəkar mütəxəssis kimi keçid və postkeçid dövrlərinin iqtisadi fikir tarixi məsələlərinin araşdırılması ilə bağlı dəyərli işlər görmüş, keçid dövrünün bölgü münasibətləri, Azərbaycan xalqının iqtisadi fikir tarixi məsələləri, iqtisad elminin təkamülü və inkişafı, müasir iqtisadi qloballaşma konsepsiyaları və milli iqtisadi modellər, onların mahiyyəti və təzahürləri, Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafı və təkmilləşdirilməsi və digər aktual məsələlər onun əsərlərində yeni baxışla dəyərləndirilmişdir. Məsələn, o, "Azərbaycanda postsovet dövrü iqtisadi fikrin təkamülü məsələsinə dair" məqaləsində 70 illik dövrdə iqtisad elmləri sistemindəki çatışmazlıqlara diqqəti yönəldərək, müstəqillik illərində milli iqtisadi fikrin daha münbit zəmin və trayektoriyada inkişaf etməsinin vacibliyini önə çəkir. Burada uzun illər ərzində iqtisadi fikrin durğunlaşmasına təsir edən səbəblər qismində aşağıdakılar qeyd olunurdu:

1) iqtisadi nəzəriyyə həyatdan uzaq olmuş; 2) iqtisadi elmi siyasət və ideologiya ilə əvəz edilmiş; 3) iqtisad elmində təşəbbüslər partiyanın qərarlarına əsaslanmış; 4) iqtisadi hadisələr formasiyalılıq və sinfilik prinsipləri ilə mütləqləşdirilmiş, mexaniki ölçü və meyarlarla izah edilmişdir; 5) respublikalara əyalət kimi baxılması iqtisad elmini məhdudlaşdırmış; 6) milli psixoloji amillər, mənəvi-iqtisadi irs nəzərə alınmamış; 7) ideoloji məhdudiyyət və qadağalar qoyulmuş; 8) dünya iqtisadi fikri ilə əlaqələrin çox məhdud olması iqtisadi fikrin inkişafına mənfi təsir göstərmişdi.

Təbiidir ki, hər zaman özünün orijinal ideyaları və yanaşmaları ilə seçilən X.Ş.Kərimov müasir Azərbaycan iqtisadi fikrinin həmin neqativ təzahürlərdən xilas olması üçün də çox dəyərli tövsiyələr vermişdir.

X.Ş.Kərimovun elmi yaradıcılığında digər mühüm istiqamət kimi onun keçmiş ittifaq, beynəlxalq, regional və respublika əhəmiyyətli konfransların işində fəal məruzəçilərdən biri kimi iştirak etməsi göstərilə bilər. Həmçinin, müasir Azərbaycan iqtisad elmi və iqtisadi fikrinin formalaşması və inkişafında çox böyük xidmətlər göstərmiş alimlərin, iqtisadçı simalarının elmi yaradıcılıqlarının əsas cizgilərinin və xüsusiyyətlərinin bütün incəlikləri ilə geniş elmi ictimaiyyətə çatdırılması istiqamətində misilsiz işlər görmüş, dərc edilən elmi əsərlər, alimlərin xatirələrinə həsr olunmuş konfranslarda bilavasitə məruzələrlə çıxış etmişdir.

Müdriklərdən biri deyib ki, yaxşı kişi varlığında yoxluğunu görməlidir. Xosrov müəllim sağ ikən özünə insanların ürəyində abidə qoymuş kişilərdən idi. Xosrov müəllim yox ikən həmişə sağ insanlardandır.

Deyirlər, həyat və ölüm iki divardır. Həyat bu 2 çəpərin arasında bir körpüdür. Xosrov müəllim bu körpünü şərəflə keçənlərdən idi.

Həyat ölümlə beşik arasında arasında sınaq dövrüdür. Xosrov müəllim bu sınaqdan da uğurla çıxmış insanlardan idi. Xosrov müəllim sıralarımızdan tez getdi. Onun gülərüz və nurlu çöhrəsi daim onu sevənlərin qəlbində yaşayacaqdır.

***Allah rəhmət eləsin!***
***Qəbri nurla dolsun!***

**Ziyad Səmədzadə,**
**Şahbaz Muradov,**
**Nazim İmanov,**
**Amil Məhərrəmov,**
**T.Ə.Paşa,**
**S.S.Səməndərov,**
**J.S.Mirzəbəyova,**
**Fərhad Qarayev,**
**Kutais Sarıyev,**
**Pəri Həsənova,**
**Hacı Rüstəmbəyov,**
**Vahid Abbasov,**
**Hürü Şamilova,**
**Mehriban Yadulla,**
**Murad Tağıyev,**
**Arif Hüseynov,**
**Zöhrab Eyvazov,**
**Səidə Şıxəlizadə**




# Azərbaycandan Gündoğar ölkəyə birbaşa reyslər açılacaq



Yaponiyanın iqtisadi dairələrində xüsusi nüfuza malik olan "Nikkey" qəzeti bu Gündoğar ölkə ilə Azərbaycan arasında açılacaq birbaşa aviareyslərin əhəmiyyətindən bəhs edən geniş məqalə yayıb.

Məqalədə qeyd edilir ki, artıq 2016-cı il yanvarın 24-dən Azərbaycanın "Silkway West Airlines" şirkəti Bakının Heydər Əliyev Beynəlxalq Aeroportundan Komatsu Hava Limanına birbaşa yük daşımalarını həyata keçirir. Vurğulanır ki, bu reyslər iki dost ölkə arasında iqtisadi və ticari əməkdaşlığın inkişafına xidmət edir.

Cari ilin iyulunda Bakıda Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyası və Yaponiya Torpaq, İnfrastruktur və Nəqliyyat Nazirliyinin Mülki Aviasiya Bürosu arasında əməkdaşlıq haqqında sazişin imzalanması məqalədə xüsusi qeyd edilir. Bildirilir ki, sazişə əsasən, yaxın zamanlarda Azərbaycandan yükdaşıma təyyarələri Yaponiyanın Tokio şəhərinin "Narita" və "Haneda" beynəlxalq hava limanları istisna olmaqla, istənilən aeroporta yükdaşıma reyslərini həyata keçirə biləcək. Bundan əlavə, birbaşa sərnişin təyyarələri Tokio şəhərinin "Haneda" beynəlxalq hava limanı istisna olmaqla, istənilən hava limanına reyslərin uçuşuna başlayacaq.

Yeni açılacaq aviareyslərin iki ölkə arasında iqtisadi və ticari əməkdaşlığın inkişafına mühüm təkan verməsi ilə yanaşı, həm də dost xalqlarımız arasında əlaqələri daha da möhkəmləndirəcəyi, qarşılıqlı turist səfərlərinin artmasına böyük təsir göstərəcəyi məqalədə xüsusi qeyd edilir.

Azərbaycan Respublikası, Bərdə şəhəri, R.Axundov küçəsi, bina 10 ünvanında yerləşən Quliyeva Könül İmran qızına məxsus olan və ipoteka müqaviləsi ilə yüklü edilmiş 6 nömrəli mənzilin Çıxarışı itirilib. Əlaqə nömrəsi: (+99412) 404 25 65; (+99450) 246 61 41

ETİBARSIZDIR

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə müdafiə sənayesi naziri Yavər Camalova oğlu

**RÖVŞƏN CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**